# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Əhali sayımız açıqlandı - 10 milyon 233 mini keçdik...



16

SƏS

№ 084 (7252)

16 may 2025-ci il.
Qiyməti 60 qəpik

## Prezident İlham Əliyev Albaniyada işgüzar səfərdədir



Dünən Prezident İlham Əliyev Albaniya Respublikasının Baş naziri Edi Ramanın və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Tiranaya işgüzar səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Tirana şəhərinin Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Albaniya Baş nazirinin müavini, infrastruktur və energetika naziri Belinda Balluku və digər rəsmi şəxslər qarşılayıblar.

# Makron qorxur, həm də qorxudur



"Biz üçüncü dünya müharibəsinə başlamaq istəmirik"

12

## Süni intellektin müsbətləri və mənfiləri nədir?



6

## Uşaqlar hansı cizgi filmlərini izləməlidir?



10

## Xarici ölkələrdən ət idxalı artır - SƏBƏB NƏDİR?



16

## "Milli Şura" pul qarşılığında "siyasi məhbus" siyahıları hazırlayır



14

## Qərənfil abı gərək...



7

# Azərbaycan-Pakistan: həmrəylik və qardaşlığın nümunəsi!

## Prezident İlham Əliyev: "Biz ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsində bir-birimizə qarşılıqlı surətdə dəstək veririk"

Böyük tərəqqi yolu keçən və Zəfər qazanan Azərbaycan beynəlxalq münasibətləri, diplomatik əlaqələri də uğurla inkişaf etdirir. Müasir dünyamızda dövlətlər arasında münasibətlərin yaranması, əməkdaşlığın möhkəmlənməsi, dünya birliyinin inkişafı sahəsində məqsədlərə birgə nail olması əsas məsələlərdən biri olaraq diqqətdədir. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla Pakistan arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. Hər iki ölkə həm ikitərəfli, həm də çoxtərəfli platformalarda bir-birinə daim dəstək göstərir və əlaqələr bütün sahələrdə sürətlə inkişaf edir. Prezident İlham Əliyev Pakistanla əlaqələrin inkişafına xüsusi önəm verir və ölkənin ali siyasi rəhbərliyi ilə qarşılıqlı inam və etimada əsaslanan yüksək səviyyəli münasibətlər saxlayır. Bu da ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf dinamikasına mühüm təkan verir və müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsində xüsusi rol oynayır.

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng etməsi əlaqələrin qarşılıqlı etimad və dostluğa söykəndirinin daha bir göstəricisidir. Pakistanın Baş naziri dövlətimizin başçısına Hindistanın ölkəsinə qarşı hərbi hücumları və atəşkəsin əldə olunduğu haqqında məlumat verib. Məhəmməd Şahbaz Şərif baş vermiş böhran zamanı Azərbaycanın göstərdiyi diplomatik, siyasi dəstəyə və Pakistan xalqı ilə həmrəyliyinə görə təşəkkürünü ifadə edib, bunun ölkələrimiz arasında qardaşlıq münasibətlərinin nümunəsi olduğunu bildirib.

Dövlətimizin başçısı regionda atəşkəsin təmin olunduğunu məmnunluqla qeyd edib, Azərbaycan xalqı və dövləti tərəfindən Pakistana dəstəyin və həmrəyliyin ifadə edildiyini bir daha diqqətə çatdırıb. Telefon danışığı zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Pakistan və Azərbaycan arasındakı yaxın və səmimi əlaqələr mədəni irs, qlobal və regional məsələlərlə bağlı sərgilədikləri birgə münasibət və beynəlxalq forumlarda əməkdaşlıqla xarakterizə olunur. Hər iki ölkə bir-birinə sıx dostluq əlaqələri ilə bağlıdır. "Biz ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsində bir-birimizə qarşılıqlı surətdə dəstək veririk, beynəlxalq təsisatlarda fəal əməkdaşlıq edirik və iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda daim bir-birimizi dəstəkləyirik", - deyə Prezident çıxışlarının birində bildirmişdir.

Pakistan həmişə Azərbaycanın yanındadır və Azərbaycana qardaş və dost ölkədir və bu münasibət qarşılıqlıdır. Ermənistanın Azərbaycana qarşı təcavüz və təxribatları, günahsız insanlara qarşı hücumları Pakistan xalqı, dövləti tərəfindən daim pislənilmişdi. Azərbaycan-Pakistan dostluğu əbədidir və sarsılmazdır. 2020-ci ilin 27 sentyabr tarixində ölkəmizdə Vətən müharibəsi başlayanda Pakistan xalqı Azərbaycana dəstək nümayiş etdirdi və bizim yanımızda olduqlarını nümayiş etdirdilər. Ermənistanın Azərbaycana qarşı təcavüzünə, terrorçuluğuna, mülki insanlara qarşı hücümlarına Pakistan da hər zaman mövqeyini bildirdi. Azərbaycana dəstək nümayiş etdirərək yanımızda oldu. Bu dəstək xalqımız tərəfindən çox böyük rəğbət və sevgi ilə qarşılandı, şəhər və kəndlərimizdə Azərbaycan bayrağı ilə yanaşı, Türkiyə və Pakistan bayraqları da dalğalandırılır.

### HƏRBİ SAHƏDƏ ƏMƏKDAŞLIQ

Azərbaycanla Pakistan arasında hərbi sahədə də əməkdaşlıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və daim inkişaf etməkdədir. İki ölkə arasında müxtəlif səviyyələrdə müdafiə sahəsində anlaşmalar imzalanıb, birgə hərbi təlimlər təşkil edilib və müdafiə sənayesi sahəsində əməkdaşlıq genişləndirilib. Pakistanın güclü hərbi sənaye potensialı, xüsusilə aviasiya və müdafiə texnologiyaları sahəsindəki təcrübəsi Azərbaycan üçün mühüm əhəmiyyət daşıyır. Azərbaycanın qardaş ölkə ilə əməkdaşlığında hərbi siyasi amil də hər zaman mühüm rol oynayıb. Qeyd edək ki, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2002-ci ildə imzalanan



müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında sazişdə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunub.

Azərbaycan Silahlı Qüvvələri ilə Pakistan Ordusu arasında da sıx əlaqələr mövcuddur. Hərbi-texniki sahədə qarşılıqlı dəstək, təcrübə mübadiləsi və kadr hazırlığı bu əməkdaşlığın əsas istiqamətlərindəndir. Azərbaycan Ordusunun zabitləri Pakistanın nüfuzlu hərbi akademiyalarında təhsil almaq və peşəkar biliklərini artırmaq imkanı əldə edirlər.

Son illərdə Pakistanın istehsal etdiyi müasir döyüş texnikaları, xüsusilə aviasiya sahəsindəki yeniliklər Azərbaycanın diqqət mərkəzində olub. Bu əməkdaşlığın ən son və mühüm nailiyyətlərindən biri Azərbaycanın JF-17C çoxməqsədli döyüş təyyarələrini əldə etməsidir. 2024-cü il sentyabrın 25-də Prezident İlham Əliyevə yeni təyyarələrin təqdim edilməsi Azərbaycanın müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addımlardan biri kimi qiymətləndirilməlidir.

### "BİZİM ÜÇÜN PAKİSTAN DÜNYADA ƏN YAXIN MÜTTƏFİQ ÖLKƏLƏRDƏNDİR"

Pakistan dövləti Azərbaycanın ədalətli mövqeyini bütün səviyyələrdə, o cümlədən beynəlxalq təşkilatlarda dəstəkləyib, ölkəmizə maddi və mənəvi dəstək olub. Təbii ki, bu münasibət dövlətlərimiz arasında əlaqələrin inkişafından, dostluq və səmimi qardaşlıq münasibətlərindən qaynaqlanır. Dövlətlərarası münasibətlərin qısa tarixi dövrünə nəzər salsaq görərik ki, Pakistan Azərbaycanın müstəqilliyini tanıyan, onunla diplomatik əlaqələr yaradan və Azərbaycanda səfirliyini açan ilk müsəlman dövlətlərindən biridir. Bakıda Pakistanın, İslamabada isə Azərbaycanın daimi nümayəndəliyi açılmışdır. Pakistan və Azərbaycan arasındakı əlaqələr siyasi, iqtisadi, təhlükəsizlik, mədəniyyət, müdafiə və digər sahələri əhatə edir. Hər iki ölkə bir-birinə sıx dostluq əlaqələri ilə bağlıdır. Hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq xalqlar arasında ənənəvi dostluq və qarşılıqlı etimadın təzahürüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistanla münasibətlərin inkişaf etdirilməsinə daim diqqətlə yanaşır. Qarşılıqlı əlaqələrin davamı olaraq 2004-cü il iyulun 8-də Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəfin Azərbaycana rəsmi səfəri olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Pakistan Prezidenti Pərviz Müşərrəfin görüşü zamanı iki ölkə arasındakı münasibətlərin inkişaf perspektivləri müzakirə olunub, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında, beynəlxalq terrorçuluq, turizm, gömrük işi sahəsində hökumətlərarası saziş, həmçinin, Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında Birgə Bəyannamə imzalanıb. Prezident Pərviz Müşərrəf Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində yaranmış Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini müdafiə etdiyini qəti şəkildə bildirib. Qardaş ölkə Qarabağ münaqişəsi ilə bağlı öz qəti mövqeyini hər zaman ifadə edib. Azərbaycana dəstək vermək və həmrəylik nümayiş etdirməklə Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu bir dövlət kimi tanımayıb. Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Azərbaycana dəstəyini möhkəmləndirmək üçün Xocalı faciəsini genosid kimi tanımışdır.

Ölkələrarası nəqliyyat, informasiya və kommunikasiya, aviasiya, mədəniyyət, maliyyə və təhsil sahəsində əməkdaşlıq sazişləri imzalanıb. Keçirilən görüşlər, imzalanan bu və ya digər sənədlər Azərbaycan ilə Pakistan arasında əməkdaşlığın davamlı olduğunu göstərir.

### İQTİSADİ-TİCARƏT ƏLAQƏLƏRİ

Ölkələrarası iqtisadi-ticarət əlaqələri genişlənib. 2023-cü ilin iyulunda Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə Lahorda "Azərbaycan Respublikasının "SOCAR Trading" şirkəti ilə Pakistan "LNG Limited" şirkəti arasında LNG yüklərinin alqı-satqısı haqqında Çərçivə Müqaviləsi"nin imzalanma mərasimi keçirilib. 2023-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 27 milyon ABŞ dolları təşkil edib. Pakistan tərəfi Azərbaycan şirkətlərinin bu ölkəyə sərmayə qoymasında çox maraqlıdır. Hazırda Azərbaycanda 3600-dən çox Pakistan şirkəti qeydiyyata alınıb və onlar sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində aktiv fəaliyyət göstərir. Pakistan şirkətləri işğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işlərində iştirak üçün də müraciət ediblər. Azərbaycan Pakistan ilə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsini vacib hesab edir. Prezident İlham Əliyevin tapşırığı ilə, Pakistandan idxal olunan düyü məhsullarının idxal rüsumu birtərəfli güzəşt tətbiq edilməklə 2027-ci il dekabrın 31-dək 15 faizdən 0 faizə endirilib.

### GƏLƏCƏK ƏMƏKDAŞLIQ ÜÇÜN HUMANİST ADDIMLAR

Millət və dövlət maraqları baxımından, müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirərək cəmiyyətdə mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilmiş Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoş məram, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin ali ideallarını özündə ehtiva edir. Firavanlığı yaratmaq, həyat tərzində sağlam mühiti formalaşdırmaq, insanların fiziki sağlamlığına diqqət yetirmək, sülhün, əmin-amanlığın çarçısına çevrilmək və s. fondun məqsədi olaraq, özünü büruzə verir. İctimai, mesenatlıq və xeyriyyəçilik əməlləri, xalqlar arasında dostluğun möhkəmlənməsi, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyət, qayğıya ehtiyacı olan uşaqlara, təhsilə diqqət və s. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın humanizm prinsiplərindən yaranır. Onu da vurğulayaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr ölkələr arasında əməkdaşlığın inkişafında əhəmiyyəti ilə seçilir. Azərbaycanın Birinci Xanımı sivilizasiyalararası dialoqa töhfə verməklə yanaşı, məktəblərin tikintisinə, dini məbədlərin bərpasına da köməklik göstərir. Azərbaycan və Pakistan arasında dostluq münasibətlərinin daha da genişlənməsinə töhfəsini verir. Pakistanda talassemiya və hemofiliyadan əziyyət çəkən xəstələr üçün Heydər Əliyev Fondunun dəstəyi ilə xeyriyyə aksiyasının keçirilməsi də məhz xeyriyyəçilik əməllərinin göstəricisidir. Aksiya çərçivəsində İslamabad şəhərində yerləşən Sundas lassemiya Mərkəzinə Fondun dəstəyi ilə alınmış qan kisələri və tibbi ləvazimatlar, ərzaq paketləri və hədiyyələr təqdim edilib. Mehriban xanım Əliyeva çıxışlarının birində vurğulamışdır ki, Heydər Əliyev Fondu tərəfindən bir sıra mühüm layihələr və xeyriyyə proqramları Pakistanın müxtəlif yerlərində icra olunub: "Çox fərəhlənirik ki, birinci layihəmiz - Müzəffərabadda 2005-ci ilin oktyabrında güclü zəlzələ nəticəsində dağılmış qızlar məktəbinin tikintisi çox uğurlu olmuş və gələcək əməkdaşlığımız üçün yaxşı əsas yaratmışdır". Mehriban xanım Əliyevanın təşəbbüsü ilə zəlzələdən ən çox dağılan bölgələrdən olan Müzəffərabadın Rara bölgəsində 500 şagirdlik qızlar məktəbi tikilib. Xatırladaq ki, Heydər Əliyev Fondu tərəfindən Pakistanda silsilə humanitar yardımlar proqramı çərçivəsində "Edhi Home" kimsəsizlər evində sığınacaq tapan uşaqlara tibbi baxış və Hepatit B virusuna qarşı peyvəndləşdirmə aparılmış, Peşavər şəhərində "Akbar Care" serebral iflic institutunda imkansızlar üçün pulsuz müayinə təşkil edilmişdir. Eyni zamanda, Xayber Paxtunxva əyalətinin Laki Marvat şəhərinin qadın və uşaq xəstəxanasında açıq ürək əməliyyatları aparılmış, Hamza Fondu (Peşavər) üçün müasir qanköçürmə avadanlığı, laboratoriya ilə təchiz edilmiş təcili tibbi yardım maşını və iki min qanköçürmə paketi alınmış, Xayber Göz Fondunun yeni binasının tikintisi üçün maddi yardım göstərilib. Pakistan rəhbərliyi tərəfindən Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya Pakistanın ali dövlət mükafatı - "Hilal-e-Pakistan" ordeninin təqdim edilməsi də təsadüfi deyildi. Həyata keçirilən xeyirxah işlər Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqətin, habelə, bu gün Vətən, xalq naminə aparılan məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli təzahürü olmaqla yanaşı, həm də Fondun cəmiyyətdə və xaricdə artan nüfuzunun ifadəsidir.

Beləliklə, əminliklə deyə bilərik ki, bu gün Azərbaycan-Pakistan münasibətləri hər iki ölkənin dövlət rəhbərlərinin səyləri nəticəsində özünün ən yüksək inkişaf dövrünü yaşayır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Qarabağ və Şərqi Zəngəzur: quruculuq-abadlıq meydanı





## MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 72-ci iclası keçirilib

Mayın 15-də Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının videokonfrans formatında növbəti 72-ci iclası keçirilib. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun sədrliyi ilə keçirilən videokonfransda MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, üzv dövlətlərin statistika qurumlarının rəhbərləri və rəhbər müavinləri, MDB İcraiyyə Komitəsinin və Avrasiya İqtisadi Komissiyasının nümayəndələri iştirak ediblər.

Şuranın iclasında MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 2024-cü ildə fəaliyyəti, MDB Dövlətlərarası Statistika Komitəsinin 2024-cü ildə gördüyü işlər, 2026-2027-ci illər üçün "MDB statistikasının inkişafı" layihəsinə dair təkliflər və digər məsələlər haqqında müzakirələr aparılıb, müvafiq qərarlar qəbul olunub.

44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizin bərpasına başlanılıb və yenidənqurma proqramı həyata keçirilir. Erməni barbarlığının nəticəsi olaraq 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərimizdəki yaşayış məntəqələrimizin əksəriyyəti dağıdılıb, fərdi və çoxmənzilli yaşayış evləri yerlə-yeksan olunub. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin sərvətlərinə qarşı sözün əsl mənasında vandallıqdır. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin göstəriş və tapşırıqlarına əsasən, dağıdılmış infrastruktur yenidən qurulur və qısa bir zamanda yeni bir həyata başlanılıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlar mərhələli olaraq abadlaşır, çiçəklənir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə maddi-mədəniyyət abidələrimizin, dini ocaqlarımızın bərpası və yenilərinin tikilməsi ilə bağlı verdiyi tapşırıqlara uyğun olaraq, torpaqlarımızın erməni işğal dövründə dağıdılan dini mədəniyyət abidələri - məscidlərimizin bərpası, yeni dini ocaqların inşası Azərbaycan dövlətinin xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin göstəricisidir. Azərbaycanın işğal altında olmuş torpaqlarında erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun konvensiyasına ziddir. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb.

### "DAŞALTI KƏNDİNİN YENİDƏN QURULMASI LAYİHƏSİ"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında iştirak ediblər. Daşaltı kənd məscidinin təməli 2021-ci ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Məscid kəndin mərkəzində milli memarlıq üslubunda inşa edilib. İkiminarəli məscid ümumi memarlıq kompozisiyası, planlaşdırma və bədii-dekorativ xüsusiyyətlərinə görə Qarabağ memarlıq məktəbinin ənənələrinə uyğun inşa olunub. Hündürlüyü 22,5 metr olan minarələr layihələndirilərkən Yuxarı Gövhər Ağa məscidinin minarələrinin formasından istifadə olunub. İkimərtəbəli məsciddə eyni vaxtda 150-dən çox insan ibadət edə biləcək. "Daşaltı kəndinin yenidən qurulması layihəsi" yerli memarlıq irsinə sadiqlik, ekoloji davamlılıq və müasir turizm infrastrukturu ilə kənd həyatını birləşdirir. Ümumi sahəsi 65 hektara yaxın olan Daşaltı kəndində 80 otaqlı 5 mərtəbəli hotel binası, kotteclər, ticarət və ictimai obyektlər, o cümlədən, informasiya mərkəzi, sərgi binası, emalatxana inşa ediləcək. Layihəyə əsasən təbiət və tarixlə vəhdət təşkil edən, geniş turizm imkanları olan kənd məkanının yaradılması nəzərdə tutulur.



Daşaltı kəndinin rekreasiya zonası təbiətə minimal müdaxilə prinsipi ilə layihələndirilib və təbiətsevərlərin ətraf mühitlə daha sıx əlaqə qurmasına imkan yaradacaq. Layihə müxtəlif yaş qrupları və maraqlara uyğun fəaliyyətləri özündə birləşdirir, həmçinin funksionallıq, sakitlik və macəra arasında tarazlıq yaradaraq, nadir istirahət təcrübəsi təqdim edir.

### ŞUŞADA GENİŞMİQYASLI TİKİNTİ-QURUCULUQ İŞLƏRİ

Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad edildikdən sonra burada genişmiqyaslı tikinti-quruculuq prosesinə başlanılıb. Bu gün şəhər tarixi siması və mədəni irsi qorunub saxlanılmaqla bərpa olunur, doğma sakinlərinə yenidən qucaq açır. İndiyədək Şuşaya 376 ailə, ümumilikdə 1409 nəfərdən artıq keçmiş məcburi köçkün qayıdıb.

Qeyd edək ki, indiyədək Şuşada 450 mənzildən ibarət 23 bina sakinlərin istifadəsinə verilib. Növbəti mərhələdə daha üç layihənin icrası nəzərdə tutulur. Dövlət və özəl tərəfdaşlığı çərçivəsində şəhərin mərkəzi küçəsində 10 yaşayış kompleksi inşa edilir. Onların sırasına mehmanxana, ofis binaları və digər obyektlərin tikintisi daxildir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Şuşa şəhərində dördüncü yaşayış kompleksinin layihəsi çərçivəsində 16 binanın inşası nəzərdə tutulub. Kompleksin ümumi sahəsi 6,2 hektardır. Ümumilikdə yaşayış kompleksində 274 mənzilin inşası planlaşdırılır. Binalarda bir, iki, üç, dörd və beşotaqlı mənzillər olacaq. Yaşayış kompleksinin ərazisində zəruri sosial infrastruktur yaradılacaq.

*Ardı Səh. 4*

# Qarabağ və Şərqi Zəngəzur: quruculuq-abadlıq meydanı

Əvvəli Səh. 3

## ŞUŞA MÜALİCƏ-SAĞLAMLIQ MƏRKƏZİ

İşğaldan azad olunmuş ərazilərimizdə Azərbaycan dövləti tərəfindən digər sahələrlə yanaşı, tibb xidmətlərinin yüksək səviyyədə təşkili üçün də genişmiqyaslı işlər həyata keçirilir. Şuşada bu cür müasir tibb ocağının yaradılması bunun əyani göstəricisidir. Şuşa Müalicə-Sağlamlıq Mərkəzi şəhərdə yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində icra olunan sosial infrastruktur layihəsi kimi çox mühüm rol oynayır. Mərkəzin xidmətlərindən, eyni zamanda, ətraf şəhər və rayonların əhalisi də istifadə edə biləcək.

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin açılışında iştirak ediblər. Bu tibb







ocağının təməli 2021-ci ilin noyabrında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Altı korpusdan ibarət olan mərkəz 90 çarpayılıqdır. Burada terapiya, pediatriya, cərrahiyyə və digər şöbələr fəaliyyət göstərəcək. Mərkəzdə, həmçinin konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, klinik diaqnostik laboratoriya yaradılıb. Şuşa Müalicə-Sağlamlıq Mərkəzi müasir standartlara cavab verən tibbi avadanlıq, o cümlədən kompüter tomoqrafiyası, rəqəmsal teleskopik rentgen, rəqəmsal stasionar USM cihazları ilə təchiz olunub. Bunlar isə öz növbəsində Mərkəzə müraciət edənlərin müayinə və müalicəsini yüksək səviyyədə aparmağa geniş imkanlar yaradır.

Tibb ocağının ərazisində Gigiyena və Epidemiologiya Mərkəzi, hemodializ və digər korpuslar inşa olunub.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı da görülən işlər sırasındadır. 3200 KVA gücündə "Xocalı" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi Xocalı rayonu ərazisində inşa edilmiş yeni yaşayış komplekslərinin, kənd təsərrüfatı və turizm obyektlərinin, eləcə də sosial-iqtisadi təyinatlı müxtəlif infrastrukturun dayanıqlı, etibarlı və fasiləsiz elektrik enerjisi təminatını həyata keçirmək məqsədi daşıyır. Yarımstansiyanın elektrik təchizatı üçün "Xankəndi-1" və "Əsgəran" yarımstansiyalarından müvafiq olaraq elektrik verilişi xətləri çəkilib. Tikintisi aparılan 35 kV-luq elektrik verilişi xətti vasitəsilə bu yarımstansiya "Ağdam-2" yarımstansiyası ilə əlaqələndiriləcək ki, bununla da Ağdam-Əsgəran-Xocalı-Xankəndi şəhərləri arasında dairəvi elektrik təchizatı sxemi yaradılacaq.

Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə isə şəbəkələrin cari vəziyyətinə dair bütün məlumatlar mərkəzləşdirilmiş şəkildə toplanılır və emal olunur, avadanlıqlar məsafədən idarə edilir və real vaxtda monitorinqi rəqəmsal sistemlər vasitəsilə həyata keçirilir. Yarımstansiya bu məqsədlə yeni nəsil rəqəmsal texnologiyalar və idarəetmə avadanlıqları ilə təchiz edilib.

Bu Mərkəz şəbəkənin etibarlı istismarını dəstəkləməklə yanaşı, elektrik enerjisinin ötürülməsi zamanı itkilərin və ümumi istismar xərclərinin azaldılmasına da şərait yaradır. Yarımstansiyadan qidalanan istehlakçılara elektrik enerjisi verilişində yaranan fasilələr barədə Mərkəz vasitəsilə real vaxt rejimində əvvəlcədən məlumat ötürülmə imkanı yaradılıb. Bərpaolunan enerji mənbələrinin elektrik şəbəkələrinə inteqrasiyası prosesi Rəqəmsal İdarəetmə Mərkəzi tərəfindən mərkəzləşdirilmiş şəkildə idarə olunduğundan enerji təchizatında fasilələrin yaranma riski minimuma endirilib. Mərkəz alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiyanın işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə koordinasiyasını tam təmin edir.

Rəqəmsal İdarəetmə Mərkəzində 52 kVt gücündə Günəş panelləri də quraşdırılıb və istehsal olunan enerjinin şəbəkəyə ötürülməsi təmin edilib, ərazisində elektromobillər üçün sürətli enerjidoldurma cihazları quraşdırılıb.

## REGİONUN İNKİŞAFINDA VƏ ƏHALİNİN RİFAHININ YAXŞILAŞDIRILMASINA TÖHFƏ

İşğaldan azad olunmuş torpaqlarımıza Böyük Qayıdış Azərbaycanın iqtisadi potensialının artmasına geniş imkanlar yaradır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahibkarlıq fəaliyyətinin təşviqi biznes cəlbediciliyinin artırılmasında, regionun inkişafında və əhalinin rifahının yaxşılaşdırılmasında mühüm rol oynayır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri həyata keçirilir. Regionda istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal edilən texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından, həmçinin burada fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən azad olunublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalı rayonunun Xanabad kəndi ərazisində yerləşən heyvandarlıq kompleksinin açılış mərasimində iştirak edib. Damazlıq fermer təsərrüfatının ümumi tutumu 750 baş iribuynuzlu heyvandan ibarətdir. Hazırda təsərrüfatda 355 baş üç növ müxtəlif cins iribuynuzlu damazlıq heyvan var. Türkiyə və Almaniya texnologiyaları tətbiq olunmaqla fəaliyyət göstərən kompleks illik 100 ton ət, 2 min ton süd istehsalı gücünə malikdir. Gələcəkdə süd istehsalının illik 3 min tona çatdırılması nəzərdə tutulur. Kompleksdə istehsal olunan məhsullar daxili bazarla yanaşı, Birləşmiş Ərəb Əmirliklərinə və Qətərə ixrac olunacaq.

Müəssisənin işğaldan azad olunmuş ərazilərdəki fəaliyyəti nəticəsində 55 iş yeri yaradılıb. Gələcəkdə süd istehsalı müəssisəsinin də işə salınmasından sonra işğaldan azad edilmiş ərazilərdə şirkət tərəfindən yaradılan iş yerlərinin sayının 100-ə çatdırılması nəzərdə tutulur. Layihə dəyəri 4,2 milyon manat olan kompleksin ərazisi 7,6 hektardır. 500 hektardan çox ərazidə isə payızlıq arpa və buğda əkilib ki, bu da təsərrüfatda yemə olan ehtiyacı qarşılayacaq.

## AZƏRBAYCANIN NƏQLİYYAT POTENSİALININ GENİŞLƏNMƏSİNƏ XİDMƏT

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışında iştirak edib.

Ağdamın müasir şəhər statusuna uyğun inkişafına xidmət edən strateji infrastruktur layihəsi olan Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcək. Kompleks vahid nəqliyyat qovşağı kimi fəaliyyət göstərəcək. Ərazisi 8 hektara yaxın olan bu infrastruktur obyektində bütün zəruri otaqlar, həmçinin gözləmə zalları, bilet kassaları, kitabxana, mağazalar, əyləncə zonaları, restoran və istirahət guşələri yaradılıb. Sərnişinlərin həm qatar perronuna, həm də avtobuslar üçün nəzərdə tutulmuş dayanacaqlara rahat keçidi təmin olunub.

Kompleksin ərazisində, həmçinin müxtəlif növ nəqliyyat vasitələrinin servis binaları və sərnişin platformaları tikilib. Ərazidə fərdi, orta və iritutumlu nəqliyyat vasitələri üçün yerüstü avtodayanacaqlar, şəhərlərarası və rayondaxili marşrutlar üzrə avtobuslar üçün perronlar, velosiped dayanacaqları, park və elektromobillər üçün elektrik doldurma məntəqəsi də yaradılıb. İşğaldan azad olunmuş rayonlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin tərkib hissəsi kimi bu ərazilərimizdə mühüm yol-nəqliyyat layihələrinin icrasına da xüsusi diqqət yetirilir. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi bölgədə ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı, rayonun sosial-iqtisadi dirçəlişinə və regionlararası əlaqələrin genişlənməsinə mühüm töhfə verəcək, öz ata-baba yurdlarına qayıdan soydaşlarımızın digər şəhər və rayonlara rahat şəkildə səfər etməsində böyük rol oynayacaq, ümumilikdə Azərbaycanın nəqliyyat potensialının genişlənməsinə xidmət edəcək. Bu cür mühüm infrastruktur layihəsinin həyata keçirilməsi Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizdə nəqliyyat sahəsində görülən işlərin ardıcıl və yüksək keyfiyyətlə davam etdiyinin bariz nümunəsidir.

## SABAHIMIZ OLAN UŞAQLAR

Ölkəmizdə yeni uşaq müəssisələrinin yaradılması prosesi işğaldan azad olunmuş ərazilərimizdə də uğurla davam edir. Həyata keçirilən bu layihələr həmin ərazilərimizə köçən uşaqların asudə vaxtlarının səmərəli təşkili və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərin uğurlu nəticələrindəndir. Kəngərli kənd körpələr evi-uşaq bağçasının açılışı da həyata keçirilən layihələr sırasındadır. Müasir standartlara uyğun inşa edilmiş 120 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların sağlam mənəvi və fiziki mühitdə yetişmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Körpələr evi-uşaq bağçasında 6 qrup fəaliyyət göstərəcək. Bağçanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb, geniş abadlıq işləri görülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Kəngərli kənd körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.Bütün bunlarla yanaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdamın Kəngərli kəndində yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada yaradılan şəraitlə tanış olub. Burada əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına imkan yaranacaq. Binada müxtəlif tədbirlərin keçiriləcəyi iclas zalı və işçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün iş otaqları yaradılıb.

Bu gün Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf dövrünü yaşayır. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri ardıcıl olaraq davam etdirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dünyaya, insanlığa sülh gərək...



***Müharibə Bu, cəmi səkkiz hərfin birləşməsindən yaranan sadə bir söz deyil, səslənməsi ilə özündə dağıntıları, qırğınları, qanı, göz yaşını, ata-ana, övlad, nişanlı, sevgili itkisini, nisgili, kədəri ehtiva edən bir məfhumdur. Müharibənin ağırlığını onu yaşayanlar bilər. Gecənin qaranlığında yuxusunu bombardman səsləri pozanlar, bir anın içində evsiz-eşiksiz qalanlar bilər. Bu gün müharibənin acılarını yaşayan Rusiya, Ukrayna, Fələstin, İsrail xalqı bilər. 5 il öncə biz bildiyimiz kimi...***

Müharibənin Vətəni yoxdur. O, harada baş verirsə, fərqli bir cəhəti olmur, eynilik təşkil edir. Bu səbəbdən də müharibənin nə olduğunu balasını müharibəyə göndərib yuxusu ərşə qalxanlar, sağ-salamat yola saldığı övladını şəhid kimi qoynuna alanlar bilər, ömrünün sonunadək qara yaylıq bağlayıb, gözləri yollarda balasını axtaran, yuxuları tək övladı olan analar bilər. Müharibənin nə olduğunu qəm-qüssədən üzündə qırış çığırları açılan, kədərdən beli bükülən atalar bilər. Atasından doymayan, ata adı gələndə gözləri qapılara dikilən, həsədi yalnız atalı yaşıdları olan uşaqlar bilər. Müharibənin nə olduğunu sevdiyi insanın nişanəsini onsuz dünyaya gətirən qadınlar bilər. Övladına müharibədə şəhid olan sevdiyinin adını verib onu hər çağırdığında ürəyi nisgildən şırımlanan analar bilər. Toy hazırlığı sevincini müharibənin əlindən aldığı, nişanlısını davaya yola salıb, onu şəhid kimi qarşılayaraq qara torpaqla paylaşan qızlar bilər. Toyundan cəmi bir-iki il ötən, bir üzü qız, bir üzü gəlin olanlar bilər.

## Müharibəyə məruz qalan xalq kimi...

Biz azərbaycanlılar keçmiş SSRİ, sonrakı MDB ölkələri arasında ən çox müharibəyə məruz qalan xalqıq. Qonşuluqdan kənar qonşumuzun başımıza açdığı bəlalar bütün dünyaya məlumdur. Dünya xalqlarından bizə qarşı törədilənləri pisləyənlər arasında illərdir ki, susanlar da olsa, lakin həqiqətin kimin tərəfində olduğunu çox gözəl bilirlər. Əsrlər boyu bu xalqa qarşı törədilən soyqırımları, haqsız, ədalətsiz müharibələri hələ demirəm. Tək son 30 ilə təsadüf edən müharibələr bizə yaxın tarix olduğu və gözlərimiz qarşısında acınacaqlı mənzərələri canlandırdığı üçün onlardan danışmaq istəyirəm.

Ermənilər tərəfindən 1988-ci ildən başlayaraq torpaqlarımıza qarşı irəli sürülən iddialar Birinci Qarabağ müharibəsinin dəhşətini yaşatdı xalqımıza. Torpaqlarımız bir-birinin ardınca işğal olundu. İllərlə ev tikib, yurd salan soydaşlarımız doğma torpaqlarından didərgin salındılar. Öz ata-baba ocağından zorla çıxarılanlar Azərbaycanın dörd bir yanına səpələndi. Onlar yurdlarını qoyub gəlmişdilər, nə əvəz edərdi yurdlarını onlara? Dədə-baba torpaqlarını, məzarlıqlarda əzizlərini qoyub gəlmişdilər, nə bu nisgilə su çiləyə bilərdi? Bar üstündə bağlarını, ruzi-bərəkətli torpaqlarını, evlərini qoyub gəlmişdilər, nə qarşılayardı bu acını? Onlar hara, hansı şəraitə gəlmişdilər? Azərbaycanın bugünkü gününə gəlməmişdilər, xeyr. Dövlətinin başında millətini əsla düşünməyən rəhbərlərin idarə etdikləri, iqtisadiyyatı tənəzzülə uğrayan, yoxsullaşmış vəziyyətdə olan ölkəmizə səpələnmişdilər. Nədən söhbət açım? İlk əvvəllər soydaşlarımızın yaşadığı evlərdənmi, oradakı şəraitin hansı vəziyyətdə olmasındanmı? Xanimanını qoyub çadır şəhərçiklərdə ömrünün illərinin üstünə il gətirməklərindənmi?

Ümummilli Liderimizin, daha sonra isə dövlətimizin başçısı Cənab İlham Əliyevin rəhbərliyi dövründə müstəqil ölkəmizin inkişafı ilə bərabər, bütün səylər qaçqın-köçkünlərin rifahına yönəldi, çadır şəhərçikləri tamamilə ləğv olundu, hər bir qaçqın mənzillə təmin olundu. Onların məşğulluğu diqqətdə saxlanıldı. Bütün problemləri vaxtında həll olundu. Ən başlıcası isə onların bir gün öz ata-baba yurdlarına qayıtmaları gündəmdə daim birinci məsələ oldu və bunun üçün əsaslı tədbirlər həyata keçirilməyə başlandı.

Axı dərd təkcə haradasa bir mənzildə yaşamaq, hərtərəfli təminat deyildi. Yuxarıda vurğuladığım müharibənin acılarını yaşamışdı bu insanlar. Tək onlar yox, bütün xalqımız. Minlərlə itkimiz vardı. Son qanınadək torpaqların müdafiəsində dayanan oğullarımız şəhid olmuşdular. Gəl, bir tərəfdən bu acıya döz, digər tərəfdənsə qoyub çıxdığın el-oba dərdinə. Gəl, Laçınsız, Kəlbəcərsiz, Zəngilansız, Şuşasız, Qubadlısız, Ağdamsız yaşa, görüm, necə yaşayırsan. Gəl, müharibənin əlindən aldığı bu torpaqların haylı-haraylı, toylu-büsatlı günlərini unut, görüm, necə unudursan. Doğmaların uyuyan o qəbirləri düşmənin əlində qoy, rahat yaşa, görüm, necə yaşayırsan? Gəl, həm canından qoparılan yurdunun, həm də minlərlə şəhidinin nisgilini bircə dəqiqə unut, görüm, necə unudursan

## Biz sülh istəyirik...

Düz 30 il, bu, az vaxt deyildi. Zamanın bir qərinəyə yaxın kəsiyi idi. Qaçqın-köçkünlərimiz nə qədər hərtərəfli qayğı ilə əhatə olunsalar da, axı onların canları o torpaqlarda idi. Nə vaxtsa yurdlarına qayıtmaq bu insanların tək arzusu idi. Müharibə istəmirdilər, yenidən fəlakət, qan görmək, şəhid qarşılamaq istəmirdilər. Lakin ocaqlarına yenidən qayıtmaqdan başqa istəkləri də yox idi. Bəs bu necə ola bilərdi? Məsələnin sülh yolu ilə həll olunması üçün istər Ümummilli Liderimiz Heydər Əliyev, istərsə də hər zaman "Biz sülh istəyirik, müharibə istəmirik",- deyən dövlətimizin başçısı uzun illər dünyaya çağırış etdi. Qarabağ məsələsinin dinc yolla həll olunması üçün illərlə beynəlxalq təşkilatlarla danışıqlar apardılar. Lakin danışıqlar heç bir nəticə vermədi. Çünki dünya ədalətsizlərdən xali deyil. Bəs Qarabağ düşmən əlində qala bilməzdi axı. Elə bu barədə Ulu Öndər deyirdi: "Təbiidir ki, biz Azərbaycanın suverenliyini bərpa edəcəyik. Torpaqlarımızın, ərazimizin bütövlüyünü bərpa edəcəyik. Amma hələlik, biz bunu sülh yolu ilə, beynəlxalq təşkilatların, ATƏT-in Minsk Qrupunun iştirakı ilə, onların köməyi ilə etmək istəyirik. Doğrudur, neçə illərdir ki, bu proses davam edir, danışıqlar gedir. Bu danışıqların əksəriyyəti mənim tərəfimdən aparılır. Mənim ətrafımda bu işlə məşğul olan vəzifəli şəxslər tərəfindən aparılır. Nəticə yoxdur. Amma bu, o demək deyildir ki, sülh danışıqlarının potensialı tükənibdir. Yox! Hələ var. Ona görə də biz yenidən müharibəyə başlamaq istəmirik. Biz istəmirik qan tökək. Başa düşürsünüzmü? Əgər bir şeyi sülh yolu ilə etmək olarsa, bir az da dözək, amma sülh yolu ilə həll edək. Ancaq həll edə bilməsək, təbiidir ki, biz torpaqlarımızı erməni işğalçılarının tapdağı altında qoya bilmərik. Biz onları mütləq azad edəcəyik. Nəyin bahasına olursa-olsun, hansı qüvvə ilə olursa-olsun, biz onları azad edəcəyik. Bunun üçün biz xalqımızın, vətəndaşlarımızın vətənpərvərlik hisslərini daha da gücləndirməliyik, artırmalıyıq".

## İkinci Qarabağ müharibəsi qaçılmaz idi

Lakin beynəlxalq təşkilatlar susdu. Ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliyə, başladığı müharibəyə, tökdüyü qanlara, minlərlə itkilərimizə, dağıdılan, yandırılan yurdlarımıza göz yumdu. İnsan haqlarına əhəmiyyət vermədi, insan amilinə saygı duymadı. Biz müharibə istəmirdik. Lakin dövlətimizin başçısının da qeyd etdiyi kimi: "Deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi qaçılmaz idi. Bunu hər kəs bilirdi. Azərbaycan ictimaiyyəti də bilirdi, beynəlxalq vasitəçilər də bilirdi, biz də bilirdik. Sadəcə olaraq, ümidlər var idi ki, Ermənistan rəhbərliyində heç olmasa özünüqoruma instinkti özünü büruzə versin və onlar öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar. Əgər bu olsaydı, müharibəyə ehtiyac qalmazdı. Biz müharibə istəmirdik və bu gün də istəmirik. Hesab edirəm ki, müharibə riskini sıfra endirmək üçün bölgəmizdə, Cənubi Qafqazda müxtəlif təşəbbüslər irəli sürülməlidir. Biz buna hazırıq. Bizə müharibə lazım deyil ".

Bəli, biz İkinci Qarabağ müharibəsini də yaşamalı olduq. 2020-ci il sentyabr ayının 27-dən başlayaraq 44 gün Qarabağda qanlı-qadalı müharibə getdi. Yenə müharibəyə xas əlamətlər: fəlakətlər, dağıntılar, ölümlər, dinc əhalinin gözlənilməyən anda itkisi, hər gün cəbhədən gələn qara xəbərlər, hər gün yüzlərlə şəhid, qan qoxusu, göz yaşları, nalə, fəryad səsləri

Bax, budur müharibə. İstəmirdik, amma məcburduq. Bizi orada torpaqlarımız gözləyirdi, namusumuz, qeyrətimiz, mənəviyyatımız olan torpaqlarımız. Zəfər bizim oldu. Minlərlə şəhid versək də, minlərlə qazilərimiz olsa da, minlərlə dinc sakinimiz xəsarət alsa da, evləri dağılsa da, zəfər çaldıq. Çünki bu, haqq savaşı, haqq etdiyimiz zəfər idi.

Qayıtdıq Qarabağa, 30 il sonra qayıtdıq. Övladlarımız kimi şəhid Qarabağa qayıtdıq. 30 ildə dağıdılan, daşı daş üstə olmayan yurda qayıtdıq. Müharibənin fəlakətləri bax, budur. İzlədik, üzüldük Hanı o tarixi abidələrimiz, qədim məscid, pirlərimiz, məktəblərimiz, xəstəxanalarımız Hanı o mərtəbəli evlərimiz, həyətlərimiz. Yolları itib, çığırları ot basıb. Heç tapmadıq əzizlərimizin qəbrlərini. Dağıdılıb hamısı. "Hanı, hanı, bəs o hanı?",- deyə-deyə çox dolandıq yurdumuzu. Amma suallarımız cavabsız qaldı. Çünki bu yurd iki dəfə müharibədən çıxmışdı. Tale yazımız olmuşdu erməni ilə qonşu olmaq.

## Müharibə itkidir: həm haqlı, həm haqsız tərəf üçün

Lakin ən dəhşətlisi budur ki, müharibə hər iki tərəfin itkisidir, həm haqlının, həm haqsızın. Dünyanın harasında olursa olsun, o yerdə ki, müharibə vardır, orada nalə, imdad səsləri, uşaq çığırtıları, hər gün insan ölümü, hər gün dağıntı vardır. Bu gün rusiyalı, ukraynalı, fələstinli, israilli uşaq, gənc, qadın, kişilərin faciəsini əks etdirən mənzərələrlə qarşılaşarkən adamın ürəyi parça-parça olur.

Ana dünyanın hər yerində ana, bala hər yerində göz nuru, ürək parasıdır. Yurd dünyanın hər yerində candan əziz, ocaq dünyanın hər yerində ondan uzaqda olana təşnədir. Bomba səsi bütün insanlar üçün fəlakətdir. Dağıntılar hər bir ölkə üçün iqtisadi tənəzzüldür. Müharibə məfhumu bütün dünya xalqları üçün fəlakətlər toplusudur. Belə isə müharibələrin dəhşəti ruhuna hopmuş bir azərbaycanlı olaraq demək istəyirəm ki, kaş müharibəsiz bir dünya qura biləK. Çünki dünyaya, insanlığa sülh gərək.

***Mətanət Məmmədova***

# Süni intellektin müsbətləri və mənfiləri nədir?

## Süni intellekt nədir?

İnsanların və ya heyvanların intellektindən fərqli olaraq maşın və ya proqram təminatının intellektidir. Süni intellekt tətbiqlərinə qabaqcıl veb axtarış mühərrikləri (Google axtarış sistemi), tövsiyə sistemləri (”YouTu-



be”, ”Amazon” və ”Netflix” tərəfindən istifadə olunur), virtual assistentlər (”Siri” və ”Alexa” kimi), özügedən avtomobillər (”Waymo”), generativ və ya yaradıcı alətlər (”ChatGPT” və süni intellekt incəsənəti), strateji oyunlarda (şahmat və Qo kimi) ən yüksək səviyyədə yarışmaq daxildir.

Süni intellekt 1956-cı ildə akademik fənn kimi təsis edilmişdir. Bu sahə optimizm dövrlərindən keçmiş, sonradan məyusluq və maliyyə itkisi yaşamış, lakin 2012-ci ildən sonra dərin öyrənmə bütün əvvəlki süni intellekt üsullarını üstələmiş, beləliklə, bu sahədə maliyyələşmə və maraqda böyük artım müşahidə edilmişdir.

Süni intellekt tədqiqatının müxtəlif alt sahələri xüsusi məqsədlər və xüsusi alətlərdən istifadə ətrafında cəmlənir. Süni intellekt tədqiqatının ənənəvi məqsədlərinə əsaslandırma, biliyin təqdim edilməsi, planlaşdırma, öyrənmə, təbii dilin emalı, qavrayış və robototexnikaya dəstək aiddir. Ümumi intellekt (ixtiyari problemi həll etmək bacarığı) sahənin uzunmüddətli hədəfləri arasındadır. Bu problemləri həll etmək üçün süni intellekt tədqiqatçıları axtarış və riyazi optimallaşdırma, formal məntiq, süni neyron şəbəkələri və statistika, ehtimal və iqtisadiyyata əsaslanan metodlar daxil olmaqla geniş spektrli problem həlli üsullarını uyğunlaşdırıb və inteqrasiya etmişdilər. Süni intellekt psixologiya, linqvistika, fəlsəfə, nevrologiya və bir çox başqa sahələrdən də istifadə edir.

## Azərbaycanda süni intellekt sahəsi necə inkişaf edir?

Prezident İlham Əliyevin uzaqgörənliyi və liderliyi ilə Azərbaycanda süni intellekt sahəsində də tərəqqi mövcuddur. Təbii ki, rəqəmsallaşma və innovasiyalara sadiqlik texnoloji inkişaf və artım üçün əlverişli mühit və zəmin yaradıb. Ölkəmiz bu sahədə regionda liderdir, iqtisadi və sosial inkişaf üçün texnologiyanın gücündən istifadə etmək istəyən digər ölkələr üçün model rolunu oynayır.

Azərbaycan hər zaman yeniliklərə açıq olması ilə fərqlənir. Bu baxımdan Səudiyyə Ərəbistanı vətəndaşı olan süni intellekt sahibi robot Sofiyanın 2018-ci il oktyabrın 23-də ölkəmizə gəlməsi və dövlətimizin başçısı İlham Əliyevlə söhbət etməsi, həmçinin müxtəlif yerlərdə görüşlər keçirməsi diqqət çəkir. İmişli rayonuna səfəri çərçivəsində ”ASAN Həyat” kompleksinin açılışında iştirak edən Prezident İlham Əliyev süni intellektin idarə etdiyi android-robotla söhbət edib.

Müasir texnologiya və innovasiyaların daim inkişaf etdiyi bugünkü dünyada unikal bacarıq və zəngin təcrübəyə malik şəxslər başqalarının həyatına əhəmiyyətli təsir göstərir. Həmyerlimiz Adəm Seymurun bu sahəyə yenilik gətirən ”Digital Backpack” layihəsində ”Resilience” Araşdırma Mərkəzində Dr. Maykl Unqar ilə əməkdaşlıq etməsi qürurvericidir. A.Seymurun təşəbbüsü texnologiya və sosial təsir vasitəsilə həssas uşaqların həyatlarını dəyişdirmək məqsədi daşıyır.

REPORTAJ



Azərbaycanda süni intellekt üzrə Milli Strategiyanın hazırlanması üçün yol xəritəsi artıq tərtib edilib. Bu, cari ilin fevral ayında Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi ilə Dünya İqtisadi Forumunun Süni intellekt və maşın öyrənməsi platforması arasında əməkdaşlıq çərçivəsində baş tutub. Rəqəmsallaşma və müasir texnoloji həllərin tətbiqi ölkəmizin iqtisadi potensialından daha səmərəli istifadə etməyə imkan verəcək.

2023-cü ilin fevral ayında Dubayda keçirilən Dünya Hökuməti Sammitində əsas diqqət süni intellekt və inkişaf etməkdə olan texnologiyalara yönəldilib. Ölkələrin qlobal yarışda rəqabətə davamlı qalması üçün süni intellekt təhsilinə sərmayə qoymasına ehtiyacı var. Azərbaycanda süni intellekt və inkişaf etməkdə olan texnologiyalar sahəsində təsirli addımlar atılır. Ölkəmizin rəqəmsallaşma və innovasiyalara sadiqliyi onu texnoloji tərəqqi uğrunda qlobal yarışın önünə çıxarıb.

Süni intellektin müsbətləri və mənfiləri nədir? SİA mövzu ilə bağlı ekspertlərin və şəhər sakinlərinin fikirlərini öyrənib.

**Texnoloq Elvin Həsənov:** ”Düşünürəm ki, ”Chatgpt” kimi süni intellekt alətlərinə olan maraq ölkəmizdə son dövrlərdə nəzərə



çarpacaq dərəcədə artıb. Bu alətlərdən bir çox peşə sahibləri, proqramçı, İT mütəxəssisləri, tələbə, müəllim və digər peşə sahibləri texnologiyadan aktiv şəkildə istifadə edirlər. Əsas məqsəd gündəlik iş proseslərinin optimallaşdırılmasında, mətnlərin yazılmasında, proqramçı yanaşmasından baxsaq, kodların yazılmasında, bu kimi ideyaların formalaşmasında bu alət bizə xeyli dəstək ola bilir. Ancaq bu tələbatın formalaşmasında texnologiya savadlılığın maariflənməsi də güclü rol oynamalıdır. Çünki istər ”Chatgpt”, istər digər süni alətlərin həm mənfi, həm də müsbət tərəfləri mövcuddur. Müsbət tərəflərindən biri ondan ibarətdir ki, istifadəçiyə istər texniki mövzularda, istər yaradıcı yazıların hazırlanması baxımından dəstək göstərə bilir. Bununla yanaşı zaman, resurs baxımından da olduqca funksionallıq təmin edə bilir. Mənfi tərəflərinə baxsaq, burada bəzi risklər, əlbəttə ki, mövcuddur. ”Chatgpt”də bəzi qeyri-dəqiq, köhnəlmiş məlumatların olmasını görə bilərik. Çünki ”Chatgpt” mövcud məlumat bazasına əsaslanır. Hər zaman ən son məlumatı əks etdirməyə bilir. İkincisi, istifadəçi bu alətə həddindən artıq güvənərək öz analizini, yaradıcılığını kölgə altına sala bilir. Ən əsas məqam isə burada məlumat təhlükəsizliyidir ki, istifadəçilər bu tip platformaya şəxsi və məxfi məlumatları ötürərkən ehtiyatlı olmalıdırlar. Çünki bu məlumatların necə saxlandığı və kimlər tərəfindən əldə oluna biləcəyi də böyük risk altındadır. Bu baxımdan istifadəçilər özlərinə aid hər hansı şəxsi məlumatları heç bir halda süni intellekt alətinə daxil etməməlidirlər”.

**Şəhər sakini Yaşar Rzaquliyev:** ”İş görəndə, nəyisə başa düşməyəndə süni intellekt köməyə çatır. Bu, müsbət tərəfidir. Mənfi tərəfi də budur ki, əgər şagird tapşırığının



cavabını proqramla yazırsa, ona heç bir köməyi olmayacaq. Amma insana çox kömək edir”.

**Şəhər sakini Cavidan Tağıyev:** Məncə, süni intellektin mənfi xüsusiyyəti yoxdur. Çünki istifadə edirəm, mənə hər işimdə kö-



mək edir. Suallara tez cavab verir. Mənfisi o ola bilər ki, bəzi süni intellekt proqramlarının daha keyfiyyətli olması üçün pul tələb olunur. Məncə, yeganə mənfisi budur. Digər hər şeydə kömək edir. Şəkil çəkmək, portret düzəltməkdə işə yarayır”.

**Şəhər sakini Vəli Qasımov:** ”Mənfi tərəfləri haqqında fikrim yoxdur. Məncə, hər cəhətdən yaxşı şeydir. Sərbəst iş yazırıq, başqa məqsədlər üçün istifadə edirik. Məncə, heç bir mənfi xüsusiyyəti yoxdur. İnsanları tənbəlləşdirə bilər. Amma mən süni intel-



lektlə razıyam. Yaxşıdır, insanlar istifadə etsinlər”.

**Şəhər sakini Zeynal Zeynalov:** ”Süni intellekt proqramları işlərimizi çox rahatlaş-



Polşa prezidenti Andrzej Duda da hesab edir ki, Varşava potensial Rusiya təhlükəsinə qarşı Fransanın nüvə çəkindirməsindən müdafiə axtarmalıdır. Eyni zamanda o, ölkədə Amerika nüvə silahlarının yerləşdirilməsinə çağırışlarını davam etdirir. "İnanıram ki, biz hər iki qərarı qəbul edə bilərik", - deyə Duda, xüsusən də Rusiyanın qonşu Belarusa taktiki nüvə silahını köçürməsinə istinad edərək bildirib.

Prezident Şarl de Qollun dövründən Fransa öz nüvə silahı və çatdırılma vasitələrini əldə etdikdən sonra, milli ərazilərin təhlükəsizliyini, o cümlədən xarici dövlətlərin təhlükəsizliyini təmin edib. Paris üçün, 2010-cu illərə qədər. Fransanın haradan gəlməsindən asılı olmayaraq təhlükəni dəf etməyə hazır olması lazım olduğunu güman edən "bütün azimutlarda müdafiə" strateji doktrinasının məqsədi məhz bu idi. Təbii ki, Soyuq Müharibə kontekstində ilk növbədə SSRİ-dən Fransa üçün potensial təhlükə nəzərdə tutulurdu. Amma nəinki. 1966-cı ildə Fransanı NATO hərbi təşkilatından çıxarmaqla de Qoll ölkəsini "xarici" müharibəyə cəlb etməmək istəyirdi. Bu, o zaman ABŞ-ın Vyetnamda müharibə apardığını və NATO müttəfiqlərini bu müharibədə iştiraka cəlb etməyə çalışdığını xatırlayanda aydın olur. De Qoll bunu Fransa üçün qeyri-mümkün etdi.

SSRİ-nin dağılması və Varşava Müqaviləsi Təşkilatının ləğvi Fransanın müdafiə strategiyasına müəyyən düzəlişlər etsə də, de Qollun müəyyən etdiyi müstəqil müdafiə kursunu Beşinci Respublikanın başında onun varisləri izlədi. 1994-cü ildə Avropada hərbi qarşıdurmanın sona çatması nəzərə alınmaqla yeniləndi. Prezident Nikola Sarkozi 2009-cu ildə Fransanı yenidən NATO hərbi təşkilatına daxil edəndə Yelisey Sarayı Fransanın nüvə arsenalının milli təhlükəsizliyin əsas təminatı olduğunu iddia etməyə davam etdi. Fransanın müdafiə strategiyasının təkamülündə yeni mərhələ Ukraynadakı silahlı münaqişə zamanı və xüsusilə qitədəki kollektiv müdafiə sahəsində öhdəliklərin əhəmiyyətli yükünü NATO-dakı Avropa müttəfiqlərinə yükləmək istəyən Donald Tramp administrasiyasının Vaşinqtonda hakimiyyətə gəlməsi ilə ortaya çıxdı.

Angela Merkelin gedişindən sonra Aİ lideri funksiyalarını üzərinə götürməyə çalışan Makron görünür, de Qollun vaxtından bəri formalaşmış Fransanın milli təhlükəsizlik konsepsiyasını Fransanın nüvə zəmanətlərinin (Britaniya nüvə potensialının iştirakı ilə) bütün Avrozonaya genişləndirilməsi istiqamətində yenidən nəzərdən keçirməyə hazırlaşır. Məsələ ondadır ki, Makron Fransanın çəkindirici qüvvələrinin təvazökar potensialını nəzərə alırmı? Üstəlik, onun özünün öz nüvə arsenalını idarə etmək müstəsna hüququndan məhrum edəcəyini və bu məsuliyyəti Aİ həmkarlarından hər hansı biri ilə, xüsusən də Brüssel bürokratiyası ilə bölüşəcəyini təsəvvür etmək çətindir. Bir şey aydındır. De Qoll tərəfindən qoyulmuş Fransanın milli təhlükəsizliyinin təmin edilməsi ənənəsinə açıq fasilə verilir.

**VƏLİ.VƏLİLİ**

# "Böyük qardaş" iddiası

*Rusiya Azərbaycanla münasibətlərinə redaktələr edəcəkmi?*

Bu gün Rusiya-Azərbaycan münasibətlərində qeyri-müəyyənlik hökm sürür. Yəni, ortada nə dostluq, nə düşmənçilik var. Bu ölkə, daha doğru ifadə etsək, Azərbaycanla kağız üzərində srtateji tərəfdaş, dost olsa da, səhnə arxasında düşmən olduğunu büruzə verir. Rəsmi Moskvanın əlinin altında olan bütün qurumlar, media, QHT sektoru, cəmiyyət institutları bir işarə ilə ölkəmizə qarşı hücuma keçdikləri ilk dəfə deyil. Azərbaycan şimal qonşusuna nə qədər səmimi davransa da, baş verən hadisələrdə dözümlülük nümayiş etdirsə də Rusiya yenə bizi suçlu çıxarmağa çalışır. Sərnişin təyyarəmizi vurur, bizə qarşı kiberhücumlar təşkil edir, deputatımızı nümayişkaranə şəkildə hava limanında saxlayır və deport edir, amma heç nə olmamış kimi davranır. XİN səviyyəsində heç bir reaksiya vermir, əksinə əxlaqsız, tərbiyyəsiz dövlət kimi davranır. Necə ola bilər, bir ölkənin rəsmi şəxslərini dəvət edəsən, sonra isə onu çağırılmamış qonaq kimi qapının kandarından qovasan? Dəhşətdir, əgər oxşar hadisə Rusiya rəsmilərindən birinin başına gətirilsəydi, Moskvanın təbliğat ruporu dayanmaq bilməzdi, bəyanatlar ard-arda düzülərdi, izahatlar tələb olunardı, həmin ölkənin taleyinə daha hansı qara səhifələr yazılardı, Allah bilir. Görünən budur ki, təkcə Rusiya öz imicini qorumaq iqtidarındadır

Rusiya bu günə qədər Azərbaycan xalqı ilə necə davranıb, bunu tarix kitabları da azdan-çoxdan yazıb. Ötən əsrin əvvəllərində dövlətçiliyimizə son qoyan, Azərbaycan torpaqlarında qondarma Ermənistan dövləti quran, 70 il bizi "SSRİ", yaxud "proletariat diktaturası", yəni "kasıbların hökuməti" adı altında əsarətdə saxlayan kimdir, əlbəttə, Rusiyadır. Bunu danmaq, inkar etmək, yaxud yumşaq şəkildə ifadə etmək tarixi saxtalaşdırmaqdır. Gərək tarixi olduğu kimi yazasan ki, gələcək nəsillər baş vermiş hadisələrin mahiyyətini, mənasını, məqsədini anlasınlar və buna görə davransınlar. Sovet kitabları nə yazırdı? Guya, Rusiya yerdə qalan 14 "qardaş respublikalar"ın xalqlarını əsarətdən xilas edib və onları "ağ günə" çıxarıb. Rusiya bizi kimin əsarətindən qurtarmışdı, məlum deyil.

## Bir paradın ətrafında baş verənlər

Rusiya II Dünya müharibəsində faşist Almaniyası üzərindəki qələbəni "özəlləşdirməyə" çox həvəslidir. Bunun üçün bütün imkanlardan istifadə edir. Hələ Sovet hakimiyyəti illərində müharibəyə öz töhfəsini vermiş şəhərlərə "qəhrəman şəhər" adı veridilər. Bu siyahıya əsasən müharibədən daha çox zərər şəkmiş şəhərlərin adı salınırdı. Digər şəhərlər da var idi ki, onlar müharibədə əldə edilmiş qələbəyə bu və ya digər yardımları dəymişdi, bu şəhərlərdə yerləşən iri zavod və fabriklər ordunu silah və sursatla təmin edirdi. Bəs Bakı o dövrdə nə edirdi, daha doğrusu qələbə üçün nə etmirdi? Bunu sadalamaqla bitməzdi, silah-sursat, hərbi təyyarələr, toplar, tanklar və ən əsası texnikaların hərəkətini təmin edən neft istehsal edilirdi. Qələbədə böyük payı olan tankların 70 faizi, aviasiyasının isə 90 faizi Bakı nefti ilə işləyirdi. Sual olunur, Bakı niyə qəhrəman olmadı? Azərbaycan xalqı ən layiqli 600 oğlunu bu müharibəyə göndərdi və tən yarısı bu savaşdan geri dönmədi, 140-dan çox Sovet İttifaqı Qəhrəmanı adını daşıyan oğul və qızlarımızın son damla qanlarına qədər döyüşdülər, amma ayrı-seçkilik salmadılar.

Bir həftə bundan əvvəl Rusiyanın "Kommersant" nəşrində II Dünya müharibəsində qazanılan qələbədə neft sənayesinin böyük rolu barədə məqalə yerləşdirilib. Orada cəbhəyə göndərilən yanacağın cəmi 10 faizini verən Qrozn və Mozdok nefti barədə ürəkdolusu söhbət açılır, amma Bakı yada düşmür. Niyə? Bu qədər qısqanclıq nəyə lazımdır? Sonra da Azərbaycan Prezidenti İlham Əliyevin Moskvada keçirilən qələbənin 80 illiyi paradına getməməsini başqa tərəfə



yozmağa çalışırlar. Cavab birdir, nə qədər ki, Moskva bütün bu oyunlara son qoymayıb, səmimiyyət göstərməyib, Azərbaycan xalqına qarşı qərəzindən əl çəkməyib münasibətlər belə də qalmaqda davam edəcək. Ermənistan Rusiyaya tüpürüb Avropanın qucağında özünə yer axtarır, Moskva susur, sərhədlərindən rus sərhədçilərini qovur, Kreml ağzına su alıb oturur. Əvəzində Ermənistanla sanksiyalardan kənar ticarət qurur, İrəvana milyardlar qazandırır. Azərbaycan isə Rusiyaya qarşı sanksiyalara qoşulmur, əlaqələrini avvəlkindən daha çox inkişaf etdirir, hətta srtateji müttəfiqlik haqda müqavilə imzalayır, buna baxmayaraq Moskva Bakını hələ də düşmən gözündə görür. Əlinə fürsət düşən kimi "iynələyir", insanlarına qarşı ayrıseçkilik yaradır, sahibkarları incidir, iqtisadi münasibətlərdə, ticari əlaqələrdə sapotajlıq edir.

Bu yerdə AZAL-a aid sərnişin təyyarəsinin vurulması ətrafında cərəyan edən hadisələr yada düşür. Rusiyanın Qrozni şəhəri ətrafında yerləşdirilən hava hücumundan müdafiə qüvvələri tərəfindən vurulan Azərbaycan sərnişin təyyarəsi raketlə vurulduqdan sonra ona heç bir kömək göstərilməyib və taleyin ümidinə buraxılıb. Pilotların qəhrəmanlığı sayəsində sərnişinlərin xeyli hissəsi qəzadan müxtəlif xəsarətlər almaqla sağ qurtula biliblər. Prezident Putinin təyyarənin Rusiya ərazisində qəzaya uğramasından məyus olması və başsağlığı verməsi barədə qeydlər var, amma təyyarəmizin hansı səbəbdən qəzaya uğraması barədə heç bir fikir bildirirlmir. Budur Putinin yanaşması. Məgər o bilmir AZAL-ın sərnişin təyyarəsi Qrozni şəhəri ətrafındakı hərbi hissədən vurulub? Üstəlik, nə Mineralnı-Vodı, nə Mahaçkala aeroportları vurulan sərnişin təyyarəsini qəbul etmək istəməyiblər, əksinə təyyarənin naviqasiya sistemini söndürüblər. Pilotlar təyyarəni vizual olaraq idarə ediblər, yalnız Xəzər dənizinin ortasında, yəni Rusiyanın dəniz sərhədini keçdikdən sonra naviqasiya sistemi işə düşüb.

Təyyarənin "qara qutu"su analiz edildikdən sonra da hava gəmisinin vurulduğu bir daha isbat olunub, amma Rusiya yenə inad edir, üzrxahlıq barədə düşünmür. Bəli, Moskva özünü çox yuxarıdan aparır, güman edir ki, istədiyi ölkələrlə istədiyi "dildə" danışa bilər və bu, belə də qəbul edilməlidir. Amma Rusiyanın "böyük qardaş" istəyini gözündə qoyan da tapılır. Azərbaycan. Prezident İlham Əliyev Moskvada 9 may paradına qatılmadı. Bunun səbəbi nə Qərbin təzyiqləri, nə Ukraynanın istəkləri oldu. İlham Əliyevin qərarı yalnız Azərbaycanın maraqları üçün idi. Halbuki, Putin İlham Əliyevi Moskvaya 2 ay əvvəl dəvət etmişdi. Kremldəkilər düşünürdülər ki, münasibətləri düzəltmək üçün 9 may paradı əsl fürsətdir. Amma Rusiya dəvətdən əvvəl dekabrda vurduğu təyyarə olayına görə tələblərimizi yerinə yetirmədiyini unutmuşdu. Bu məsələyə aydınlıq gətirilməmiş yeni təxribatların törədilməsi isə Rusiyanın xislətini ortaya qoydu. Azərbaycan mediasına kiberhücum, azərbaycanlı deputatın deportasiya edilməsinə nə ad vermək olar?

Azərbaycan Prezidenti 9 mayda Moskvaya səfər etsəydi, Bakının təyyarə hadisəsi ilə bağlı tələblərini rusiyalı həmkarına bir daha çatdıracaqdı. Bu səfər Azərbaycan-Rusiya gərginliyini arxada qoya bilərdi. Amma Rusiyanın bu hadisəni unutdurmaq cəhdləri alınmadı. İlham Əliyev Rusiya liderinin parad dəvətindən imtina edən liderlədən biri oldu. Bu imtinanın arxasında çox böyük siyasi iradə dayanır. Azərbaycan Prezidenti ölkəsinin maraqlarından çıxış edərək Moskvaya onun öz "dili" ilə cavab verdi.

## Münasibətlərin gərginləşməsi kimə nə verəcək?

Rusiya mediasında Azərbaycan əleyhinə çağırışlar iki ölkə arasında münasibətlərdə çatları dərinləşdirir. Rusiyada miqrantlara qarşı qaydaların sərtləşdirilməsi ilə daha çox bu ölkədə yaşayan azərbaycanlılara qarşı təzyiqlər artmağa başlayıb. Rusiya telegram kanallarında elə görüntü yaradılır ki, sanki Rusiyada yalnız azərbaycanlı miqrantlar yaşayır. Hətta bəzi hallarda Rusiya vətəndaşı olan azərbaycanlılar da hədəfə çevrilir. Rusiyanın məsuliyyətli dövlət xadimləri, ictimai xadimləri və deputatları ölkədə milli sülhün pozulmaması, Rusiya ilə onun ənənəvi dostları və müttəfiqləri, məsələn, Azərbaycanla yaxşı münasibətlərin korlanmaması üçün belə məsuliyyətsiz bəyanatlar verilməməsinə çağırış edir. Buna baxmayaraq Rusiyada kifayət qədər nüfuzlu türkofob, o cümlədən azərbaycanofob qüvvələr var. Onlar münasibətlərin indiki dövründən istifadə edib, Rusiya ilə Azərbaycan arasında mümkün qədər çox münaqişə yaratmağa çalışırlar. Onlar həmçinin, Rusiya ilə Türkiyə arasında münaqişə yaratmağı arzulayırlar.

Rusiya Dövlət Dumasının deputatlarının Azərbaycan əlehinə mütəmadi çıxışlarının da arxasında bəzi qüvvələri dayandığı bəllidir. Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı fəaliyyət göstərən Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının MDB ilə iş Komitəsinin birinci müavini Konstantin Zatulin və Ailənin müdafiəsi komitəsinin sədrinin müavini Vitaliy Milonov məhz Rusiyanın hakim partiyası olan "Vahid Rusiya" (Yedinaya Rossiya) partiyasının üzvləridir.

Rusiyada Azərbaycana və azərbaycanlılara qarşı kampaniya Bakıda "Rus Evi"nin bağlanması prosesinə başlanılandan sonra sürətlənib. Rusiya Əməkdaşlıq Təşkilatının təsis etdiyi "Rus evi" yumşaq gücün fərqli formasıdır. Bakıda 2011-ci ildə fəaliyyətə başlayan "Rus evi"nin məqsədi iki ölkə arasında mədəni və humanitar əlaqələrin inkişafına xidmət etməli olsa, fəaliyyət istiqamətlərindən biri Azərbaycanda Rusiyaya bağlı olan "5-ci kolonla" işbirliyini gücləndirmək idi. "Rus Evi"nin " layihələri" arasında 20 Yanvar qırğınının müəlliflərindən biri olan Yevgeniy Primakov "xatirəsinə" Bakıdakı universitetlərdən birində yazı müsabiqəsi keçirmək, işğalçılığı təbliğ edən və Rusiyanın imperiya simvollarından biri sayılan Georgi lentlərini Bakıda paylamaq olub. Bunlar Azərbaycan əleyhinə atılmış addımlar idi. Nədən Bakıdakı "Rus evi" bu illərdə 26 fevralda Xocalı soyqırımının anım günü ilə bağlı hər hansı tədbir keçirməyib? Rusiya poeziya günləri keçirmək üçün "Rus evi"nə ehtiyac yoxdur. Məşhur rus yazıçı və şairləri olan Çexov, Tolstoy və ya Puşkin olsun - bunların yaradıcılığı barədə internetdən də xəbərdar olmaq mümkündür.

Azərbaycanın ABŞ-ın USAİD təşkilatına ehtiyacı olmadığı kimi, "Rus evi"nin də fəaliyyətinə ehtiyacı yoxdur. İstənilən ölkənin səfirliyində mədəniyyət məsələləri üzrə müşavir olur. Həmin müşavir nəsə tədbir keçirmək istəyirsə, bunu Azərbaycanın müvafiq strukturları ilə razılıq əsasında həyata keçirə bilər. Məgər hər bir ölkənin Azərbaycanda özəl "evi" var? Qeyd edək ki, dünyanın 70-dən artıq ölkəsində 90-a yaxın nümayəndəliyi fəaliyyət göstərmiş "Rus evi" (Rossotrudniçestvo) 1925-ci ildə SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən yaradılıb. "Yumşaq güc" kimi istifadə edilən bu "evlər" "Rusiya mədəniyyətini və ədəbiyyatını, rus dilini təbliğ etmək" adı altında ölkələrə Rusiya xüsusi xidmət orqanlarının rəsmi və qeyrirəsmi əməkdaşlarını yerləşdirir, yerli şəbəkəni qurmağa və cəmiyyətlə Rusiya leyhinə iş aparmağa məsul olur.

2022-ci ildə Rusiya Ukraynaya hücum etdikdən sonra Avropa və digər ölkələrdə "Rus evi" və ya bu qəbildən olan rus mədəniyyət mərkəzlərinin fəaliyyəti dayandırılıb və ya məhdudlaşdırılıb. Bu ölkələr sırasında Latviya, Estoniya, Litva, Xorvatiya, Slovakiya, Polşa, Rumıniya, Çex Respublikası, Ukrayna, Fransa, Böyük Britaniya, Gürcüstan və s ölkələr var. Bu ölkələrin demək olar ki, hamısında Rusiyaya məxsus mədəniyyət mərkəzlərinin öz fəaliyyət istiqamətləri ilə deyil, casus fəaliyyəti ilə məşğul olduqları, ölkənin daxili işlərinə qarışdıqları əsas gətirilib. Azərbaycan tərəfi də " Rus evi"nin ölkə ərazisində fəaliyyətinə xitam verilməsi barədə diplomatik kanallar vasitəsilə Rusiyaya rəsmi bildiriş göndərib. Bundan sonra "Rus evi" fəaliyyətini dayandırıb.

**V.VƏLİYEV**

# "Milli Şura" pul qarşılığında "siyasi məhbus" siyahıları hazırlayır

Sübuta yetirilir ki, istər daxildəki dağıdıcı məxluqlar, istərsə də ki, xaricdəki antimilli ünsürlər, eləcə də ermənipərəst dairələr Azərbaycana qarşı daha çox "siyasi məhbus" termini ilə öz ağılları ilə təzyiq etməyi düşünürlər. Bir-birini təkzib edən, bir-birinin ziddinə olan siyahılardan görünür ki, oğurluqla, cibgirliklə, qaçaqmalçılıqla, məşğul olan, avtoxuliqanlıq etməklə cəmiyyətə hörmətsizlik göstərən, vergi cinayətləri törədən və digər əməllərə görə həbs olunanları dağıdıcı müxalifət "siyasi məhbus" olaraq təqdim etməyə çalışır. Daha doğrusu, ironiya ilə qarşılanan "siyahılar" xarici ağalarına təqdim edirlər. Ağaları da müəyyən hesabatlar hazırlayır və özlərinə yaxın təxribat maşını funksiyasını yerinə yetirən mətbu orqanlar vasitəsi ilə dünya ictimaiyyətinin diqqətinə çatdırırlar. Təbii ki, ağıllı, geniş bilgilərə malik dünya ictimaiyyəti yalan üzərinə hazırlanan hesabatları gülüşlə qarşılayıb, qəzəblə rədd edirlər. Bu baxımdandır ki, özlərini beynəlxalq aləmə insan haqlarının müdafiəsi üzrə ixtisaslaşmış təşkilatlar kimi göstərməyə çalışan "Amnesty İnternational", "Human Rights Watch", "Freedom House" və digərləri sifarişli hesabatlar yaymaları səbəbindən ciddi təşkilatlara çevrilə bilmirlər. Digər tərəfdən sözügedən təşkilatların Azərbaycana qarşı qərəzli olduğu Ermənistanın işğalçılıq siyasəti nəticəsində milyona yaxın azərbaycanlının işğal zamanı hüquqlarının pozulmasından bir kəlmədə yazmayıb və ya hesabatlar təqdim etməyib. Ermənistanda insan hüquqlarının kobud şəkildə pozulması, jurnalistlərin öldürülməsi, fikir adamlarının yazdıqları yazılara görə həbs olunması, kütləvi aksiyaların vəhşiliklə dağıdılması, mitinqə çıxanların zərərsizləşdirilməsi üçün silahlardan atəş açılması və digər rüsvayçı hallarla bağlı danışmayıblar susmağa üstünlük veriblər. Azərbaycanda hansısa xırda bir məişət hadisəsi baş verən də hay-küy qaldırıb, öz mənəviyyatsızlıqlarını ortaya qoyublar. Bütün bu kimi şou xarakterli hay-küylərin arxasında isə onlara verilən tapşırıqlara dayandır.



## Milli Şuranın yeni fırıldağı üzə çıxdı

Araşdırmalara əsasında üzə çıxan faktlar təsdiq edir ki, xarici maraqlı dairələrin Azərbaycandakı təmsilçiləri qarşısında qoyduğu əsas tələb, xırda da olsa insan hüquqları ilə bağlı pozuntuları aşkarlayıb, onları Avropada yerləşən mərkəzə ötürməkdir. Ona görə də, dağıdıcı müxalif məxluqlar, xüsusilə də Milli Şurada və AXCP - də təmsil olunan şəxslər Azərbaycanın ən ucqar kəndində baş verən ailədaxili narazılığı qlobal problem kimi dəyərləndirib "Amnesty İnternational", "Human Rights Watch", "Freedom House" və digər təşkilatlara, eləcə də maddi yardımlar aldıqları mərkəzlərə çatdırırlar. Ən gəlirli sahə "siyasi məhbus" məsələsi olduğu üçün Milli Şura və AXCP rəhbərliyi daha çox bu məsələdən yaralanmağa çalışırlar. Onlar üçün "siyahı"lara kimlərin adlarını əlavə etmək problem deyil. Hətta cani, qaniçən, terrorçu, insan qatili olsa belə, onların pul qarşılığında adları siyahılara salına bilər. Artıq sübuta yetirilir ki, Milli Şuranın və AXCP-nin əldə etdikləri qrantların müəyyən hissəsi "siyasi məhbus" siyahıları ilə bağlı açıqlamalarla çıxış etmələri həll edilir. Hətta Milli Şuranın rəhbəri Cəmil Həsənli və AXCP sədri Əli Kərimli pul qarşılığında oğurluq edən, cibgirliklə məşğul olan şəxslərin adlarını da "siyasi məhbus" siyahılarına salırlar. Milli Şurada təmsil olunmuş, lakin sonradan oranı tərk etmiş adının çəkilməsini istəməyən ...m... ....r...-nin dediyinə görə, "siyasi məhbus" siyahısının 157 nəfərdən 219 nəfərə çatdırılmasında tərəflərarsında maliyyə sövdələşmələrinin rolu olub. Onun sözlərinə bir nəfərin "siyasi məhbus" siyahısına salınması üçün 5 min manatdan 12 min manata qədər maliyyə vəsaiti tələb olunur. "Adların "siyasi məhbus" siyahısına salınması həbsdə olan şəxsə hansı imtiyazlar verir" sualımıza keçmiş Milli Şura üzvü qısa cavab verdi: "heç nə". Əlavə olaraq qeyd edir ki, sadəcə olaraq həbs olunan şəxs "siyasi məhbus" siyahısında adının olması ilə ictimaiyyət arasında populyarlıq qazanmağa ümid edir.

Qeyd etdiyimiz kimi, siyahı alverində AXCP sədri Əli Kərimlinin və Cəmil Həsnlinin daha fəal olduqları görünür. Çünki onların irəli sürdüyü siyahıda adlar fərqli olmaqla yanaşı, həm də "zəngin"dir. Onların iddiasına görə, qaçaqmalçılıq maddəsi və dələduzluq ittihamı ilə həbs olunan Ələsgər Məmmədli, Müşfiq Cabbarov, Anar Məmmədov, İbrahim Hümbətov, Hafiz Babalı, Taleh Bağırzadə, Nazim Məmmədov (Baydəmirli), Akif Qurbanov və bu kimi digər konkret cinayət əməli törətdiklərinə görə həbs olunan şəxslər "siyasi məhbus" hesab olunurlar. Halbuki, sözügedən şəxslərin əksəriyyəti istintaqda özlərini təqsirli bildiklərini etiraf edib və fəaliyyətlərində hər hansı siyasi əməl olmadığını qeyd ediblər.

## "Siyasi məhbus" şousu dağıdıcı müxalifəti bitirəcək

Faktlara istinad etməklə demək olar ki, cinayət törətməyə öyrəncəli olan A.Məmmədli haqqında 29 oktyabr 2013-cü il tarixdə AR CM-nin 192.2.2, 192.2.3, 213.2.1, 308.2-ci maddələri ilə cinayət işi açılıb. 2013-cü ildə keçirilən prezident seçkilərini nüfuzdan salmaq məqsədilə ABŞ-ın Milli Demokratiya İnstitutundan qanunsuz yolla aldığı 276 min ABŞ dolları maliyyə vəsaiti üzrə saxta əməliyyatlar həyata keçirməsi səbəbindən haqqında cinayət işi qaldırılıb və o, 5 il 6 ay azadlıqdan məhrum olunub. Ancaq ölkə Prezidentinin 17.03.2016-cı il tarixli əfv sərəncamı ilə həbsdən azad edilib. A.Məmmədli göstərilən humanistliyi dəyərləndirib, normal fəaliyyətini qurmaq əvəzinə cinayət fəaliyyətini davam etdirib. Ümumiyyətlə A.Məmmədlinin rəhbərlik etdiyi "Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi" 2001-ci ildən bu günədək ölkəmizdə keçirilən bütün seçkilərin müşahidəsini aparıb və bu seçkilərin beynəlxalq standartlara cavab verməməsi barədə qərəzli hesabatlar hazırlayaraq xarici donorlara və beynəlxalq təşkilatlara ötürüb.SMDTM-in fəaliyyəti ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD), Milli Demokratiya İnstitut (NDİ), Demokratiyaya Milli Dəstək fondu (NED), "German Marşal" fondu və ABŞ səfirliyinin dəstəyi ilə həyata keçirilib. Bütün seçkilərin qeyri-demokratik mühitdə keçirilməsi barədə qərəzli hesabatlar hazırlanaraq beynəlxalq təşkilatlara təqdim edib. Sübuta yetirilib ki, SMDTM-in fəaliyyəti ABŞ-nin "Beynəlxalq İnkişaf Agentliyi" (USAİD), "German Marşal Fondu", "Freedom House", "National Endowment for Democracy" (NED), "National Democratic İnstitute" (NDİ), Çexiyanın "Prague Civil Society Center" təşkilatları tərəfindən maliyyələşdirilib. 07 fevral prezident seçkiləri ilə bağlı Anar Məmmədli təxribat xarakterli hesabatın hazırlanmasına xidmət edəcək müşahidəçilər toplamaq üçün böyük canfəşanlıq göstərsə də, yalnız cəmi 50-60 müşahidəçi toplaya bilib. Bu da insanların onu təxribatçı kimi tanıdıqlarını və çirkin məqsədinin nədən ibarət olduğunu tam şəkildə anlamalarından irəli gəlir. Diqqətçəkən məqam ondan ibarətdir ki, bu məxluq xarici donorlardan külli miqdarda pul alsa da, müşahidəçilərə 40-50 manat pul verib. Heç şübhəsiz ki, aldığı qrantlardan müəyyən qədər Ə.Kərimliyə də ötürüb. Qarşılığında A.Məmmdlinin təşkil etdiyi təxribatçılardan ibarət müşahidəçilərinin az qala 80 faizini AXCP Gənclər Komitəsinin üzvləri təşkil edirlər. Belə bir şəxsi "siyasi məhbus" olaraq təqdim etmək rüsvayçılıqdır və hüquqa, qanunlara qarşı hörmətsizlikdir.

Bir neçə şəxsə qarşı hədə-qorxu yolu ilə pul tələb etməkdə ittiham olunan N.Məmmədov (Baydəmirli) da "siyasi məhbus" olmadığını bildirib. N.Məmmədov məhkəməsində onun adının "siyasi məhbus" olaraq çəkilməsinin yolverilməz olduğunu bildirib və buna görə dağıdıcı müxalifət təmsilçilərini sərt şəkildə qınayıb. Bütün bunlar Əli Kərimlinin, Cəmil Həsənlinin və digər "siyasi məhbus" siyahıları tərtib etməklə gəlir əldə etməyə çalışanların ifşası və iflası deməkdir. Hesab etmək olar ki, bundan sonra onlar siyasi fəaliyyətlərinə son verib istefaya getməlidirlər. Çünki yalan üzərində qurulan hekayələrin onların məhvinə, ən azı "siyasi məhbus" hesab etdikləri şəxslərin yanına göndərilmələrinə gətirib çıxara bilər.

*İLHAM ƏLİYEV*

# "Zibil qutularının azlığı vəzifəli şəxslərin öhdəliyini yaradır"

"Bir az yaradıcı yanaşıb zibil atmaq məsələsinə ancaq vətəndaşın səhvi baxımından baxmaq lazım deyil". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Səbuhi Axundov deyib. O bildirib ki, tullantılar haqqında Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulur ki, iri şəhərlərdə, rayonlarda inzibati mərkəzlərdə zibil qabları arasında məsafə 100 metrdən çox olmamalıdır: "Biz bunu yalnız mərkəzdə görmüşük. Şəhərin ən böyük küçələrindən biri Həsən Əliyev küçəsidir. Bu küçədə 500 metrdən bir zibil qabı ancaq görə bilərsiniz. Zibil qutuları çox azdır. Ona görə də, vətəndaşın zibili yerə tullamasına bəraət qazandırmamaqla yanaşı zibil qutularının azlığı da konkret olaraq vəzifəli şəxslərin öhdəliyini yaradır.





262.2.3. İçməli məişət, texniki və tullantı sularının kənara (çöllərə, küçələrə, rabitə və enerji kommunikasiya şəbəkələrinə) təyinatsız axıdılmasına görə - fiziki şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir.

266.3. Məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə-fiziki şəxslər üç yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər dörd min manat məbləğində cərimə edilir.

306.1. Stansiyaların vestibüllərinə, keçidlərinə və platformalarına, habelə eskalatora və vaqonların salonuna tullantı atmağa və ya həmin obyektlərin üzərində hər hansı yazılar yazmağa, məhdudiyyət çəpərləri və girişi qadağan edən nişanlar quraşdırılmış yerlərdən stansiyaya daxil olmağa, zərurət olmadan "sərnişin-maşinist" rabitəsindən istifadə etməyə görə - iki yüz manat məbləğində cərimə edilir.

266.4. Şəhərlərdə və rayon inzibati ərazi vahidlərinin inzibati mərkəzlərində tutumların (urnaların) yerləşdirilməsi zamanı "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məsafənin nəzərə alınmamasına görə - vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.

266.4-1. Məişət tullantılarının buna cavabdeh şəxslər tərəfindən vaxtında xüsusi ayrılmış ərazilərə daşınmamasına görə - vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər iki min manat məbləğində cərimə edilir.

Şəhərlərdə və rayon (şəhər rayonları istisna olmaqla) inzibati ərazi vahidlərinin inzibati mərkəzlərində tutumlar (urnalar) arası məsafə 100 metrdən çox olmamalıdır".

*Söylü Ağazadə*

MÜNASİBƏT

# “Günəşi örtsə də qara buludlar”...

*Dünyanı zəhərləyən Chemtrails proyekti*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*

**Təyyarələrlə bütün dünyaya səpilən kimyəvi maddələr nədir və hansı məqsəd güdülür?**

Britaniyada hökumətin dəstəklədiyi 50 milyon funt sterlinqlik proqram çərçivəsində qlobal istiləşmə ilə mübarizə aparmaq üçün Günəş işığının qarşısını alan üsulları sınaqdan keçirə bilər. Röyters xəbər verir ki, iqlim dəyişikliyini yavaşlatmaq üçün Günəş işığının qarşısını almaq hədəf götürülüb.

Bir neçə həftə ərzində təsdiqlənəcək geomühəndislik layihəsində işığı əks etdirən hissəciklərdən ibarət buludları atmosferə vurmaq və ya buludları daha parlaq etmək üçün dəniz suyu spreylərindən istifadə etmək kimi üsullar tətbiq edilə bilər.

Digər bir üsul, istiliyi saxlamaq üçün təbii yorğan rolunu oynayan buludların incəldilməsini nəzərdə tutur.

Qeyd olunur ki, layihə uğurlu olarsa, daha az Günəş işığı Yer səthinə çatacaq və bu vəziyyət Yeri müvəqqəti olaraq soyudacaq. Layihə ARIA kimi tanınan Qabaqcıl Tədqiqatlar və İnnovasiyalar Agentliyi tərəfindən maliyyələşdirilir.

Böyük Britaniya hökuməti mübahisəli eksperimentə 50 milyon funt sterlinq ayırıb, lakin növbəti 4 il ərzində vergi ödəyicilərinin ödəcəyi pulun ümumi məbləği 800 milyon funt-sterlinqdir. Bir çox alimlər Günəşi şüalarının süni şəkildə qarşısını kəsmək planlarına qarşı xəbərdarlıq edirlər.

## Əvvəl inkar olunan, indi rəsmi təsdiqlənən qorxulu proyekt

Qeyd edək ki, son illərdə bu proyekt davamlı şəkildə həyata keçirilir. Təyyarələrlə səmadan xüsusi kimyəvi maddələr səpirlər. Bəzi ölkələr öz ərazilərində bu layihənin həyata keçirilməsini qadağan edib. Chemtrails” adlandırılan proyekt əsasında səmadan kimyəvi toz buludlarının səpilməsi ilə bağlı dünya mediasında və sosial şəbəkələrdə milyonlarla real videofakt yayımlanıb. Bəzi ərazilərdə bu əməliyyatdan sonra ciddi ekoloji və sağlamlıq problemlərinin yaranması müşahidə olunur. Məsələn, qonşu Türkiyə ərazisində bu əməliyyatın həyata keçirilməsi zamanı çəkilmiş saysız hesabsız videomateriallar var.

Bu qlobal proses əsasən ABŞ və Britaniya tərəfindən aparılır. Baxmayaraq ki, indiyədək də bunu rəsmi olaraq etiraf etmirdilər. Məsələn, bir neçə il əvvəl jurnalistlər Böyük Britaniyanın Ətraf Mühit, Ərzaq və Kənd Məsələləri üzrə Dövlət Katibindən təyyarələrin kimyəvi izlərinin çirkləndirici təsirləri ilə bağlı hansı araşdırmaların aparıldığını soruşduqda belə cavab vermişdi: ”Departament kimyəvi izlər üzərində tədqiqat aparmır, çünki onlar elmi cəhətdən qəbul edilmiş bir fenomen deyil”. Lakin bir neçə il keçməmiş bu proyekt rəsmi olaraq işə salınacağı elan edilir...



## Chemtrails proyekti nə deməkdir?

Dünya mediasında yazılanlar və bəzi ekspertlərin fikirləri əsasında aydınlıq gətirməyə çalışaq. Chemtrails hərbi və mülki təyyarələrin göydə ağ/boz kimyəvi spreyləridir. Bu əməliyyat ilk dəfə 70-ci illərdə qeydə alınmışdı (köhnə fotoşəkillərdə görünür) və aktivlik 80-ci illərdə artmışdı (xüsusilə ABŞ-da). ”Qlobal layihə” 1998-ci ilin əvvəlində başlamışdır və bu gün sistematik çiləmə demək olar ki, hər gün və dünyanın demək olar ki, hər yerində aparılır.

Küləyin gücündən və sürükləmə istiqamətindən asılı olaraq, səpilən maddələr saatlarla havada qala və tədricən yayıla bilər. Təxminən 2-5 saat ərzində ağ-boz təbəqə əmələ gəlir və səmaya yayılır, tutqun bir görünüş yaradır.

Xüsusilə aydın havalarda səmaya qalxan təyyarələr şəbəkə sxemində sprey uçuşları həyata keçirirlər. Yaxınlıqda hava limanı olmayan ərazilərdə geri dönüş manevrləri nəticəsində maraqlı birləşmələr formalaşır. Kvadrat (bərabər məsafədə) naxışların formalaşması sübut edir ki, mülki hava hərəkəti bu birləşmələrin formalaşmasında heç bir rol oynamır. Bu uçuşlar havanı sistemli şəkildə süni buludlarla örtmək məqsədi daşıyır. Bəzən iki təyyarənin demək olar ki, eyni hündürlükdə uçduğunu müşahidə edə bilərsiniz, lakin birinin arxasında davamlı zolaq var, digəri isə bir neçə dəqiqədən sonra yox olan qısa zolaq buraxmaqla uçur.

Bəzən bu zolaqda qırılma olur-kimyəvi çən boşaldıqda havada zolaq əmələ gəlməsi dayanır və digər çən işə salındıqda yenidən püskürmə başlayır. Bu vəziyyət müntəzəm olaraq izlənilə bilər. Günəşin çıxması və batması zamanı, xüsusilə günəş işığında havadakı metal hissəciklərindən göy qurşağı rənginin əks olunması müşahidə edilir.

## Su buxarı ilə kimyəvi spreyin müqayisəli fərqi

Chemtrails və su buxarı zolaqları (Contrails və ya Sublimasiya zolaqları) arasındakı ən bariz fərq onların göydə qalıcı olmasıdır. Su buxarı adətən 10000 metr yüksəklikdə -40°C-dən aşağı hava temperaturunda əmələ gəlir. Normal su buxarı (Contrails) adətən 3-4 saniyədən sonra, bəzən bir neçə dəqiqə ərzində yox olur, lakin istisna hallarda 20 dəqiqəyə qədər davam edə bilər.

Chemtrails buludları isə küləyin sürətindən və istiqamətindən asılı olaraq bir neçə saat ərzində dağılır. İncə zolaqlar tədricən genişlənir, südlü bulud şorbası yaradır.

Püskürdülən kimyəvi maddənin nüvəsində borium duzları və alüminium hissəcikləri var. Kanadada yağış suyu ilə bağlı aparılan tədqiqatlar zamanı havada alüminium dəyərlərinin 20 dəfə yüksək olduğu ortaya çıxdı. Kimyəvi kokteylin təxminən bir il havada qalmasını təmin etmək üçün polimer qarışığı daşıyıcı material əlavə edilir. Su buxarlarında heç vaxt görülməyən bir görünüşü (3-cü fotoşəkildə görünən) kimyəvi turbulentlər (aşağıya doğru asılmış birləşmələr).

Chemtrails kokteyllərində aşkar edilə bilən başqa bir maddə: JP8 110 reaktiv yanacağı ilə qarışdırılmış etilen dibromid (EDB). Bu kimyəvi pestisid 1983-cü ildə EPA tərəfindən qadağan edilib, çünki o, kanserogen və kimyəvi toksindir.

## Chemtrails-in məqsədi nədir?

İddia edilir ki, alüminium hissəcikləri izolyasiya qatı əmələ gətirərək və günəş şüalarını əks etdirərək qlobal istiləşmə ilə mübarizədə köməkçi element olacaq. Guya borium oksidləşməsinin havada istixana effektinə səbəb olan karbon dioksidi bağlaması və neytrallaşdırması baş verəcək. Avropa ölkələrində gətirilən bəhanələrdən biri də bu cür hərəkətlərlə insanların baş verə biləcək kimyəvi müharibəyə qarşı peyvənd edilməsi, başqa sözlə desək, insanların müdafiəsi uğrunda mübarizə aparıldığıdır.

Belə bəhanələr doğru olsaydı, illərdir davam edən hava manipulyasiyasını niyə insanlardan gizli saxlamaq istəyirdilər? Deyilənən əksinə, alüminium hissəcikləri atmosferdə istiliyi tutmaq və qlobal istiləşməyə səbəb ola bilər. İzolyasiya edən təbəqə yaratmaq istəsəydilər, metal hissəcikləri 12 km yüksəklikdə troposferə deyil, 50 km yüksəklikdə stratosferə səpilərdi. Çünki metal hissəcikləri stratosfer təbəqəsində daha uzun müddət qala bilər və Günəş şüaları daha təbii şəkildə əks oluna bilirdi. Metal hissəciklərin troposferə atılmasının arxasında başqa mülahizələr olduğu aydın olur. Məsələn, metal hissəciklərdən istifadə edərək havanı və müəyyən əraziləri daha yaxşı idarə etmək üçün HAARP texnologiyasının tətbiqi.

## Bəs HAARP nədir?

HAARP- atmosferin yuxarı hissəsini, xüsusən də ionosferi öyrənmək üçün yüksək tezlikli elektromaqnit dalğalarından istifadə edən Amerika mülki və hərbi tədqiqat proqramıdır. Bir çox konspiroloqlar Alyaskadakı HAARP qurğusunun fəaliyyəti ilə son illərdə dünyada baş verən daşqınlar, elektrik enerjisinin kəsilməsi, vulkan püskürmələri, zəlzələlər və sunamilər kimi təbii fəlakətlər arasında əlaqə görürlər.

Ehtimal olunur ki, HAARP texnologiyası geofiziki müharibə üçün də istifadə edilə bilər. HAARP-ın həmçinin düşmən təyyarələrini və ya kosmik gəmilərini məhv etmək və ya sıradan çıxarmaq, hətta dünyanın böyük bir hissəsində rabitəni (İnternet və Telekommunikasiya) tamamilə iflic etmək potensialına malik olduğu deyilir.

## HAARP-ın arxasındakı texnologiya

HAARP Layihəsi ionosferin tranzistor effektindən istifadə edir. HAARP ötürücüsü ilə ionosferə 100 milyard vatt enerji göndərməklə nisbətən aşağı gücə malik nəhəng enerji uçqunu yaratmaq mümkündür! Çünki bu dalğalar xüsusi bucaq altında ionesferə yönəldikdikdə, oradan əks olunaraq lazımi yerə yönəldilir.

Yüksək tezlikli dalğaların ionosferə təsir etməsinə şərait yaradaraq ionosfer plitəsini doldursanız, inanılmaz enerji topu (silah) yarada bilərsiniz. Hava məkanına enerji verməklə siz həmin ərazidəki bütün elektronikanı məhv edə, hətta şiddətli ildırım çaxmaları (partlayışlar) yarada bilərsiniz.

Bəzi ekspertlər iddia edir ki, bu yolla insan şüuruna təsiri mümkündür. Transmitterin yüksək tezlikli dalğalarını daşıyıcı kimi istifadə edərək, onu aşağı tezlikli titrəyişləri ilə modulyasiya edə və insan beyninə təsir edə bilərlər. Əgər insan beyninin cavab verəcəyi vibrasiya modelindən istifadə edilsə, telepatiyada olduğu kimi məlumat ötürmək olar. Beynin elektromaqnit dalğalarından belə asanlıqla təsirlənməsinin qeyri-mümkün olduğunu düşünə bilərsiniz. Ancaq sizin bu fikriniz doğru deyil, əgər insan beyni müəyyən tezlik diapazonunda eksperimental olaraq şüalanırsa, EEG-də aydın reaksiyalar görə bilərsiniz, bu, elmi təcrübələrlə sübut edilmişdir. Bu əsasən şüuraltına təsir edən bir güc olsa da, endokrin sistemə çıxışı təmin edərək sağlamlıq sahəsində dağıdıcı nəticələrə də səbəb ola bilər.

## Chemtrails tətbiqlərinə kim məsuliyyət daşıyır?

İpləri kimin çəkdiyi barədə dəqiq heç nə məlum deyil. BMT belə bir cəhdi təkzib edib, ona görə də bu, gizli əməliyyatdır. Bunun BMT miqyasında həyata keçirilən qlobal əməliyyat, yoxsa CIA, Mossad, MI6, FSB və BND kimi kəşfiyyat orqanlarının həyata keçirdiyi bir hərəkət olduğu bilinmir. Bununla belə, bəzi hərbi təyyarələrdən (NATO təyyarələri, KC-135 və KC-10) istifadə edildiyi üçün dünya hökumətləri bu qlobal layihənin sistemli şəkildə həyata keçirilməsindən xəbərdar olmalıdırlar.

## Rəsmi Bəyanat

8 iyul 2004-cü ildə iki ətraf mühit fəalının sualına cavab olaraq, Almaniya Federal Mədəniyyət və Media Şurasının o zamankı sədri Monika Griefahn belə dedi: ”Mən bu məsələ ilə bağlı narahatlığınızla razıyam, dünyada istixana qazı emissiyalarını azaltmaq əvəzinə, yerin atmosferində geniş yayılmış zəhərli alüminium birləşmələri ilə təcrübələr aparılır. Bu cür təcrübələrin məntiqi baxımından bu birləşmələri troposferdə deyil, stratosferə istifadə etmək daha yaxşı olardı”. Bu, havaya Chemtrails spreylərinin püskürdüldüyünü təsdiqləyir.

## Chemtrails-in insanlara təsiri

Etilen dibromid (EDB) ilə JP8 110 təyyarə yanacağı aşağıdakı simptomlara səbəb ola bilər: tənəffüs problemləri, şiddətli boğaz ağrısı və sinus iltihabı, şişkin limfa düyünləri, öskürək, nəfəs darlığı, sinus baş ağrısı, ümumi tənəffüs çatışmazlığı, ürək və qaraciyərin zədələnməsi.Alüminium oksidi beyin hüceyrələrinə mənfi təsir göstərir, yaddaş və konsentrasiyanı pozur, Alzheimer xəstəliyinə səbəb olur və tənəffüs yollarına ciddi ziyan vurur. Spreydə istifadə olunan polimerlər göz və tənəffüs yollarında çökür və qanaxma, ağrı və ciddi göz problemlərinə (burun qanaması və qanlı nəcis) səbəb ola bilər. İnsanlara digər təsirlər kifayət qədər öyrənilməsə də, uzun müddətdə ciddi sağlamlıq problemləri gözlənilir. Almaniya Federal Sağlamlıq Təhsili Mərkəzinin məlumatına görə, 2000-ci ildə ölümlərin 11%-i qripə bənzər xəstəliklər nəticəsində baş verib və xəstəliyi törədən virus (patogen) məlum deyildi.

***Elçin Bayramlı***

# Xarici ölkələrdən ət idxalı artır - SƏBƏB NƏDİR?

*İqtisadçı ekspert vacib detalları açıqladı*



"Müsbət və mənfi tərəfləri ondan ibarətdir ki, ölkədə ətə olan tələbatın ödənilməsi daha səmərəli şəkildə həyata keçiriləcəkdir. Çünki Azərbaycanın daxilində ətə olan tələbat yüksəkdir. Lakin bu tələbatı ödəyəcək qədər təklif mövcud deyil". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Akif Nəsirli deyib. Akif Nəsirli sözlərinə belə davam edib: "Digər tərəfdən, bu tendensiyanın mənfi cəhəti ondan ibarətdir ki, ölkə idxaldan asılı vəziyyətə düşür və bu asılılıq yerli istehsalın zəifləməsinə gətirib çıxarır. Əgər əvvəllər əhalinin ətə olan tələbatının 40-50 faizi yerli istehsal hesabına ödənilirdisə, idxalın artması yerli istehsalın azalmasına şərait yaradacaq. Ölkə daxilində ət istehsalı kifayət qədər baha başa gəlir, xaricdən gətirilən ət daha ucuz olur. Buna görə də sahibkarlar idxalı genişləndirdikcə ölkə daxilindəki istehsal zəifləyəcək, azalacaq iş rahatlayacaq. Əhalinin ətə olan tələbatı ödənilsə də, ölkənin idxaldan asılılığı genişlənəcək.

İdxaldan asılılığın genişlənməsi isə real təhlükədir. Hazırda dünyada baş verən kataklizmlər və geosiyasi proseslər o qədər sürətlidir ki, dünyanın şəkil dəyişməsi an məsələsidir. Belə dəyişikliklər zamanı təbii ki, böhranlar olur, əlaqələr pozula bilər. Bu halda ölkələrin bir-biri ilə əlaqələri kəsilə və idxal prosesi dayanmış ola bilər. Eyni zamanda, Azərbaycana qarşı olan ölkələr tərəfindən müəyyən sanksiyalar tətbiq edilə bilər. Məsələn, bu günlərdə Hindistanın Azərbaycanı turizm məkanı kimi boykot etməsi və bu ölkədən idxaldan imtina etməsi barədə bəyanatın verilməsi ehtimalın bariz nümunəsidir.

Hindistanın verdiyi bəyanatı icra etməsi o qədər də təminatlı deyil başqa ölkələr tərəfindən daha ciddi və təminatlı sanksiyalar tətbiq oluna bilər. Belə olan halda Azərbaycan daxili imkanları hesabına öz əhalisinin ərzaq və digər məhsullara olan tələbatını ödəyə bilməyəcək. Təkcə ətlə bağlı deyil, ümumilikdə əhalinin ərzağa olan tələbatının 50 faizindən çoxu idxal hesabına ödənilir. Bu isə çox təhlükəli tendensiyadır".

***Ayşən Vəli***

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Goranboyda qayınana gəlinini tüfənglə vurub



***Goranboy rayonunda bədbəxt hadisə nəticəsində bir nəfər ağır xəsarət alıb. Oxu.Az xəbər verir ki, hadisə rayonun Dəyirmanlar kəndində baş verib. 2001-ci il təvəllüdlü Nəzrin Xudaverdiyeva qarının küt travması diaqnozu ilə ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib. Ona dərhal tibbi yardım göstərilib.***

İlkin məlumata görə, hadisənin başvermə səbəbi ehtiyatsızlıqdır. Belə ki, onun qayınanası - 1968-ci il təvəllüdlü Gülxanım Xudaverdiyevanın əlində olan tirdən açılan atəş nəticəsində güllə dəmiri deşərək gənc qadına dəyib. Faktla bağlı araşdırma aparılır.

# Əhali sayımız açıqlandı - 10 milyon 233 mini keçdik...

***Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 8 min 253 nəfər və ya 0,1 faiz artaraq aprelin 1-i vəziyyətinə 10 milyon 233 min 142 nəfərə çatıb. SİA xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.***

Ölkə əhalisinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Cari ilin aprel ayının əvvəlinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasının, 23,0 faizi Bakı şəhərinin, 9,2 faizi Lənkəran-Astara, 8,6 faizi Abşeron-Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,6 faizi Qazax-Tovuz, 6,1 faizi ŞəkiZaqatala, 5,9 faizi Gəncə-Daşkəsən, 5,4 faizi Quba-Xaçmaz, 5,2 faizi Mil-Muğan, 4,9 faizi Şirvan-Salyan, 3,1 faizi Dağlıq Şirvan, 3,0 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşmüşdür.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000